Rəna Qurbanlı Qılıcova

# Duyğu dəryası

Bakı - 2026

**Redaktor:** **Nəcibə İlkin**
*Şair-publisist, yazıçı, AYB-nin, AJB-nin,*
*Dünya Türk Yazarlar Birliyinin, İraq-*
*Türkmən Ədəbiyyatı Birliyinin üzvü,*
*Prezident mükafatçısı, İctimai xadim*

*Rəna Qurbanlı Qılıcova,*
***"Duyğu dəryası"***
***Bakı, «İMZA» nəşrlər evi, 2026, 312 səh***

**İSBN 978-9952-37-440-1**

© *Rəna Qurbanlı Qılıcova* - **2026**

# Sözün qadın taleyi, yaxud ruhdan doğan poeziya

Qadın qələmindən süzülən söz, sadəcə misra deyil - duyğunun nəfəsi, yaddaşın səsi, taleyin pıçıltısıdır. Bu kitabda toplanan şeirlər bir şair qadının daxili aləminin güzgüsüdür: sevinc və kədərin, ümid və sükutun, inam və tənhalığın poetik etirafıdır.

Rəna Qurbanlı Qılıcova. Ədəbi aləmdə öz dəsti-xətti ilə sevilən və seçilən şairə xanım. Mənim də çox sevdiyim və şəxsiyyətinə, yaradıcılığıa hörmət bəslədiyim qadın. Elə şeirlərində qadına verdiyi dəyər buna əyani sübutdur ki, qadının kim olduğunu söz-söz, misra-misra ruhun yaddaşına köçürür;

***Bəzən dəniz kimi coşub, çağlayır,***
***Dünyanın yükünü çəkəndir qadın!***
***Bəzən için-için, gizli ağlayır,***
***Hər sirri qəlbinə əkəndir qadın!***

***

***Hər biri evinin mərd sonasıdır,***
***İşiylə tarixə yazdırır adın.***
***Onlar şəhidlərin öz anasıdır,***
***Evlərin dirəyi qadındır, qadın!***

Rəna xanım Qurbanlını uzun müddətdir tanıyram. Onun məhsuldar yaradıcılığı müxtəlif məzmun və mövzularla dolu bir aləmdir. Yaradıcılığında qadın duyğusunun zərifliyi ilə düşüncənin müdrikliyi ahəngdar şəkildə qovuşur. Müəllif olaraq sözü bəzək üçün deyil, həqiqəti demək üçün seçir. Hər misrada həyatın acı-şirin dadı, za-

manın izləri, insan ruhunun sınmayan tərəfi duyulur. Bu mənada onun poetik duyğuları mənəvi zənginliyinin həyat duyarlığıdır.

VƏTƏN! Bu söz onun aləmində başqa cür səslənir. Bu səsdə haray var, həqiqət var. Vətən sevgisinə geniş yol var, o yollarda şəhid olmaq, o yollarda şəhid anası olmaq kimi şərəfli hisslər var.

Onun vətən sevgisi vətən şeirlərində bir ana laylası qədər əziz, bir vətən əsgəri qədər müqəddəsliyinə yan alır. Bu müqəddəslik mənəvi hisslərinin dünyəvi duyğularında tüğyan edir. Vətən- Ana -Şəhid-Zəfər kimi müqəddəs hissləri şeirin poetik gözəlliyində elə cilalayır ki, hiss edirsən ki, bu gözəllik onun mənəvi dünyasının hakim olduğu bir varlığıdır:

***Ey gözəl vətənim, dik tut başını,***
***Qalibik, fəxr elə qalib sözündən.***
***Bir daha ağlama, sil göz yaşını,***
***Qoy sevinc yaşları gəlsin gözündən.***

***

***Hər ovuc torpaqda var şəhid qanı,***
***Şərəfli bir yolu keçdi, şəhidlər!***
***Vətənin uğrunda verdilər canı,***
***Ürəkdən bu yolu seçdi, şəhidlər.***

Rəna xanımın yaradıcılığının ideya-estetik təməlində milli düşüncə sistemi dayanır. Şairənin poeziyası fərdi hisslərin ifadəsi olmaqdan çıxaraq, xalqın tarixi yaddaşı, mədəni şüuru və mənəvi dəyərlər sistemi ilə üzvi şəkildə qovuşur. Burada söz təkcə estetik kateqoriya deyil, həm də milli varlığın qorunma və ötürülmə vasitəsidir.

Onun şeirlərində Ana- Vətən anlayışı sadəcə bir coğrafi məkan deyil, şairin ruhunda doğulan, qəlbində böyüyən müqəddəs bir varlıqıdır. O, ana kimi sözü doğurur, böyüdür, qoruyur və bəzən də övladından can bahasına sədaqət istəyir. Şair üçün Vətən torpaqdan əvvəl taleyin adıdır, yaddaşın səsidir, qanla yazılmış tarixdir.

***İgiddir hər övladı,***
***Qalib ölkədir adı.***
***Həsəd aparır görən.***
***Ən gözəl yerdir vətən!***

Ana - Vətən mövzusu poeziyada ən ülvi hisslərin cəmləndiyi mənəvi zirvədir. Burda torpağın hər qarışı bir xatirə, hər daşı bir şəhid nəfəsi, hər çayı bir ananın göz yaşıdır. Şair Vətəni təkcə sevmir, sadəcə onu duyur, yaşayır, ağrısını öz ürəyində daşıyır. Vətən şeirə çevriləndə, misralar bayrağa bənzəyir, sözlər and kimi səslənir.

Bu mövzuda yazılan şeirlərdə Vətən çox vaxt ana obrazında təcəssüm edir; səbirli, məğrur, yaralı, amma suqunluğu min fəryaddan ağır. Şair bu ananın qarşısında borcludur – sözü ilə, nəfəsi ilə, bəzən də canı ilə.

Ana Vətən həm fəxarət, həm həsrət, həm də ümiddir. İşğalın acısı misralara qara kölgə salır, azadlıq arzusu isə şeiri işıqlandırır. Bu şeirlərdə torpaq danışır, tarix söz alır, gələcək dua edir. Onun vətən, ana haqqında yazdığı hər sətir milli yaddaşın bir səhifəsində çevrilir.

***Bir gün baxacaqsan bütün hər yana,***
***Bir kədər düşəcək o şirin cana,***
***Onda deyəcəksən, hardasan ana?***
***Dünya bir yanadır, sən də bir yana.***

Rəna xanımın Ana - Vətən mövzusu xalq arasında qurulan mənəvi körpüdür. Bu körpüdən keçən sözlər zamanın sərhədlərini aşır, nəsilləri birləşdirir və Vətən- Ana təkcə yazılarda, xəritələrdə deyil, ürəklərdə əbədi olaraq özünə yer edir.

***Qapının önünə çatdığım zaman***
***Yadıma düşdü ki, evdə yoxsan sən.***
***Bu dünya başıma fırlandı inan,***
***Kədərlə qapıdan geri döndüm mən.***

Rəna xanımın poetik dili səmimi və aydındır. O, oxucunu uzaq fəlsəfi labirintlərdə itirmir, əksinə, gündəlik həyatın içindən süzülən duyğuları bədii sözün nuruna çevirir. Onun misralarında ana laylasının istiliyi, vətən torpağının qoxusu, qadın taleyinin səssiz harayı yaşayır.

Bu yaradıcılıq oxucuya hazır həqiqətlər təqdim etmir; düşünməyə, hiss etməyə, öz daxilinə baxmağa dəvət edir. Çünki əsl poeziya sual doğurur, cavab yox. Bu ön sözlə oxucunu bir şairə qadının söz dünyasına dəvət edirik — zərif, amma möhkəm; sakit, amma dərin; kövrək, amma işıqlı bir dünyaya.

***Elə bil saatdan asılıbdı daş,***
***Bürüyüb hər yeri kədər, qəm necə?***
***Bulaq tək süzülür gözlərimdən yaş,***
***Çox sirli görünür mənə bu gecə.***

Onun poeziyasında zaman yalnız xronoloji ölçü deyil, insan şüurunun sınaq meydanıdır. Rəna Qurbanlı üçün keçmiş xatirə, gələcək isə sadə arzu deyil — hər ikisi indi-

nin içində yaşayan mənəvi haldır. Onun misralarında insan öz taleyinin müşahidəçisi olmaqla yanaşı, həm də onu dəyişməyə cəhd edən varlıq kimi təqdim olunur. Burada söz, düşüncənin kölgəsi yox, düşüncənin özüdür.

Rəna xanım varoluşun suallarına qışqırmadan, səssizcə toxunur. O, həyatın mənasını böyük iddialarla deyil, kiçik detalların hikməti ilə açmağa çalışır: susqun baxışda, yarımçıq cümlədə, deyilməmiş etirafda. Bu baxımdan onun poeziyası ekzistensial bir etirafdır — insanın özü ilə üzüzə qalma anlarının poetik salnaməsi.

***İnsan ömrü sanki sirli saraydı,***
***Talelər yazılır ağlı, qaralı.***
***Bəxtləri onlara verilmiş paydı,***
***Kimi ağ günlüdür, kimi yaralı.***

***

***Yolumu salmışdım qəbirsanlığa,***
***Daşlardan cürbəcür adam baxırdı.***
***Özümü itirdim lap bir anlığa,***
***Gözümdən sinəmə yaşlar axırdı.***

Burada qadın kimliyi yalnız bioloji və ya sosial çərçivədə deyil, ontoloji mahiyyətdə təqdim olunur. Qadın — yaradıcı başlanğıc, səbir və dirənişin sintezidir. Şairənin misralarında qadın taleyi qurbanlıq deyil, dərk edən və dərinləşdirən bir şüur kimi görünür. O, ağrını zəiflik deyil, idrak mərhələsi kimi yaşayır.

Rəna Qurbanlı milli fəlsəfənin əsas dayaqları olan torpaq, yaddaş, dil və mənəviyyat anlayışlarını poetik diskursun mərkəzinə çəkir. Torpaq onun şeirlərində coğrafi məkan deyil, ontoloji başlanğıcdır — insanın kimliyini

müəyyən edən ilkin mənbədir. Yaddaş fərdi xatirə səviyyəsindən çıxaraq kollektiv şüurun daşıyıcısına çevrilir; dil isə sadəcə ünsiyyət vasitəsi yox, milli ruhun semantik kodu kimi təqdim olunur.

Rəna Qurbanlının sevgi şeirlərində sevginin ucalığı, sədaqəti, etibarı, inamı ulduz kimi yanır, nuru söz dünyasının təməlində boy atır. O, bu boy atmada oxucunu mənəvi dünyasının işığına qərq edir.

***Həmişə adını sevgiylə andım.***
***Lazımdır sevginin qədrini bilmək.***
***Özümü dünyanın xoşbəxti sandım,***
***Hər zaman gözəldi sevib - sevilmək.***

Bu poeziyada sevgi yalnız bir hiss deyil — o, mənəvi dayaq, varlığın mənası, insanı ucaldan bir qüvvə kimi təqdim olunur.

Rəna xanımın yaradıcılığında sevgi xüsusi yer tutur. Çünki sevgi, bəzən sözdən daha çox həqiqət daşıyır. O, susaraq danışmağı, demədən anlatmağı bacarır. Onun poetik fəlsəfəsində insanın kamilliyi cavab tapmaqda yox, sual verməyi bacarmaqdadır.

***Kölgə tək arxamca hey sürünürsən,***
***Şimşək tək başımın üstə çaxırsan.***
***Gəzdiyim hər yerdə sən görünürsən,***
***Həmişə gizlicə mənə baxırsan.***

Bu baxımdan bu poeziyada milli-fəlsəfi sintez aydın müşahidə edilir: şairə klassik Şərq düşüncə ənənəsinin - mənəvi-estetik irsini müasir poetik təfəkkürlə birləşdirir.

İnsanın kamilləşmə ideyası, mənəvi məsuliyyət anlayışı və haqq-ədalət duyğusu bu yaradıcılıqda mərkəzi fəlsəfi kateqoriyalar kimi çıxış edir.

***Həsrətlə baxıram getdiyin yola,***
***Getdiyin yollara dikilib gözüm.***
***Boylanıb gəzirəm mən sağa-sola,***
***Səni gözləyirəm yenə də özüm.***

Beləliklə, bu poeziya oxucunu yalnız estetik zövqə deyil, daxili oyanışa çağırır. Bu misralar oxunmur — yaşanır. Çünki burada söz, ruhun özünə qayıdış yoludur.

Qadın kimliyi milli fəlsəfi kontekstdə mənəvi varislik funksiyasını daşıyır. Şairənin poetik subyekti qadını təkcə ailə və cəmiyyət çərçivəsində deyil, milli dəyərlərin qoruyucusu, mədəni yaddaşın daşıyıcısı kimi təqdim edir. Bu baxımdan onun yaradıcılığı milli özünüdərk prosesinə xidmət edən estetik-fəlsəfi mətnlər sistemi kimi dəyərləndirilə bilər.

Metodoloji baxımdan Rəna Qurbanlının  dili sadə leksik quruluşla dərin semantik qatlar yaradır. Bu, milli poeziyada mühüm olan aydınlıq və hikmət vəhdətini təmin edir. Onun şeirlərində metafora düşüncəni gizlətmir, əksinə, onu açır; obrazlar estetik yüklə yanaşı, fəlsəfi məna daşıyır. Həm də üslub cəhətdən a.b; a.b.sistematik quruluşa xüsusi nəzarət edir. Bu isə şairin nə qədər mükəmməl olduğunu sübut edir.

***Yaşının üstünə gələcək yaşın,***
***Nə qədər başıma mən qoysam həna.***
***Başına dən düşüb, ağarar bası,***
***Görərsən qocalır sizin bu Rəna.***

Bu bənddə aydın fikirlə izah etmək olar. Birinci misra ilə üçüncü misranın, ikinci misra ilə dördüncü misranın həmqafiyə olması, qafiyə sisteminin klassik cəhətdən gözlənilməsi aydın görünür. Müasir ədəbi aləmdə belə yazan şair demək olar ki, çox azdı, bəlkə də yoxdur. Onlar yalnız ikinci misra ilə dördüncünün həmqafiyə olmasına yalnız şərait yarada bilirlər. Rəna xanım isə heç kəsə bənzəməyən və fərqli olaraq klassik ənənə şeir üslubunu ortaya qoyur.

Rəna xanımın yazdığı poema – "Sirli ölüm" bu zamanın və onun ağrılarının acı nəticəsini ortaya qoyur.

**"Sirli ölüm"** poeması zahirən bir ölüm hadisəsindən bəhs etsə də, əslində insan ruhunun, cəmiyyətin vicdanının və taleyin qaranlıq qatlarının poetik açarıdır. Müəllif bu əsərdə ölümü fiziki son kimi deyil, sirli bir həqiqət, danışa bilməyən bir fəlsəfə kimi təqdim edir. Mövzu baxımından əhatəli, obrazlılıq baxımından isə maraqlı bir əsər olmaqla bu günümüzün ağrılarını özündə əks etdirir.

Poemada "ölüm" obrazı susan bir varlıqdır, lakin onun sükutu hayqırışdan daha təsirlidir. Bu susqunluq oxucunu düşündürür:

— O niyə öldü?

— Kim öldürdü?

— Yoxsa onu zaman, laqeydlik, haqsızlıq öldürdü?

Rəna xanımın poetik dili yumşaq olduğu qədər də ağrılıdır. Misralar sanki qaranlıq bir otaqda yanan zəif şam işığı kimidir – həm işıq verir, həm də kölgələri daha aydın göstərir. Burada ölüm romantikləşdirilmir, əksinə, sirli və suallarla dolu bir həqiqət kimi təqdim olunur.

Əsərin əsas bədii gücü metaforik düşüncə sistemindədir. "Sirli ölüm" konkret bir insan yox, bəzən; cəmiyyətin içində diri-diri ölən vicdandır, unudulan məhəbbətdir,

tapdalanan qadın taleyidir, susdurulan həqiqətdir.

Müəllifin bir şair kimi dünyagörüşü bu poemada açıq hiss olunur: o, ölümü də danışdırır, susqunluğu da mətnə çevirir. Qadın duyğusallığı ilə fəlsəfi düşüncə burada vəhdət təşkil edir. Bu, əsərə həm emosional dərinlik, həm də intellektual yük qazandırır.

**"Sirli ölüm" oxucuya cavab vermir –** onu suala çəkir. Poemanın ən böyük uğuru da budur: oxucu mətni bitirəndə rahatlanmır, əksinə, daxilində bir narahatlıq yaranır. Bu isə artıq bədii qələbədir. Çünki böyük poeziya rahatlıq yox, oyanış yaradır.

Nəticə olaraq demək olar ki, "Sirli ölüm" poeması - həm simvolik, həm fəlsəfi, həm də dərin psixoloji qatlara malik bir əsərdir.

Bu poema sübut edir ki, şair qadın yalnız hisslərin yox, sirli həqiqətlərin də tərcüməçisidir.

Nəticə etibarilə, Rəna Qurbanlının yaradıcılığı milli-fəlsəfi düşüncənin müasir poetik ifadəsidir. O, oxucunu milli yaddaşa söykənən mənəvi özünütəhlilə çağırır və poeziyanı bir sənət hadisəsi olmaqla yanaşı, milli şüurun davamlılığına xidmət edən intellektual məkan kimi təqdim edir.

Mən Rəna Qurbanlının hər misrasında dərin və geniş ürək gördüm. O ürək ki, safdır, təmizdir, çiçək kimi ətirli, günəş kimi nurludur. Bu nurun hər misrada parlaq görünməsi vəürəklərə yol açması aydın görünür. O, hər kəsi düşünür, hər kəsə doğru və düzgün fikirləriylə həmdəm olmağa çalışır. Bu onun xalqına, millətinə olan sevgisinin bariz nümunəsidir.

**Nəcibə İlkin**

## Niyə küsdün

Ətəyindən tök daşını,
Gəl sinəmə qoy başını,
Yaylıqla sil göz yaşımı,
Məndən axı niyə küsdün?

Hər nazına mən dözmüşəm,
Tellərimi yan düzmüşəm,
Səndən əlimi lap üzmüşəm,
Məndən axı niyə küsdün?

Küsdün, ürək dərd bağladı,
Bu gözlərim çox ağladı,
Bulaq kimi yaş çağladı,
Məndən axı niyə küsdün?

Gözlər çəkir hey yolunu,
Bağlamısan əl – qolumu,
Bilmirəm heç sağ – solumu,
Məndən axı niyə küsdün?

Coşsun sular, qopsun tufan,
Qoy kinini yusun hər an,
Səndən ötrü öldüm inan,
Məndən axı niyə küsdün?

# Üzüm gəlmir

Ömür baxmır indi sözə,
Zəmanəyə cətin dözə,
Ölüm gəlsə üzbəüzə,
Dilim gəlməz söz deməyə.

Əcəldən vaxt alammaram,
Bu dünyada qalammaram,
Həyatdan söz salammaram,
Üzüm gəlməz döz deməyə.

Ərli qadın, evli kişi,
Qarışdırır bütün işi.
Nədir bunun son gərdişi?
Üzüm gəlmir çöz deməyə.

Qalmayıbdı həyat dadı,
Qeyrət, namus bəs hardadı?
Ürək indi çox dardadı,
Üzüm gəlmir döz deməyə.

Yağış yağmaq bir gərəkdi,
Yaxşı süzgəc tor, ələkdi,
Bunu bilən bir fələkdi,
Üzüm gəlmir süz deməyə.

Kaş pisliklər süzüləydi,
Yer üzündən üzüləydi,
Çəhənnəmdə düzüləydi,
Üzüm gəlmir düz deməyə.

## Sənsizlik öldürür

Sənsizlik öldürür, öldürür məni,
İşıqlı dünyama çöküb qaranlıq.
Hər yerdə gözlərim axtarır səni,
Kaş görə biləydim səni bir anlıq.

Gözümdən qəm yağır, üzümdən kədər,
Bir günüm bərabər olubdur ilə.
Yolunu gözləyim axı nə qədər?
Göz yaşım çağlayıb dönübdür selə.

Sənsizlik öldürür, öldürür məni.
Ömrümü yandırdım, döndərdim külə.
Mən sənsiz gəzirəm çölü- çəməni,
Sənin yoxluğunu mən bilə- bilə.

Həsrətlə baxıram getdiyin yola,
Getdiyin yollara dikilib gözüm.
Boylanıb gəzirəm mən sağa-sola,
Səni gözləyirəm yenə də özüm.

## Könlümün bağbanı

Sən üzü nurlusan, nurlu ayımsan!
Bənzərsən sən zərif, incə bir gülə.
Yaradan bəxş edən əziz payımsan!
Düşüb gözəlliyin dillərdən - dilə.

Könlümdə güllərdən bir bağça saldın.
Həmin bu bağçanın bağbanısa sən.
Rəngini ağappaq incidən aldın,
Sənin tək bağbanı çox sevirəm mən.

Dünyanın ən şirin neməti oldun,
Bu sevgin qəlbimdə dərin kök atıb.
Şərbət tək könlümə, qəlbimə doldun,
Yaradan sevgiyə şəkər, bal qatıb.

Mən doya bilmirəm bu bal dadından.
Ey mənim qəlbimin gözəl bağbanı!
Həzz aldım həmişə sənin adından,
Canına bağlıdır nənənin canı.

## Dünya çalxalanır

Dünya yaman çalxalanır,
Göy tutulur, şimşək çaxır.
Görən nəyə arxalanır?
Su yerinə palçıq axır.

Çox dəyişib indi dövran,
Sanki dünya qan ağlayır.
Tufan qopur qəfil hər an,
Çaylar coşub sel çağlayır.

Sel-su basır hər bir yanı,
Yel oynadır hey qaşını.
Gündə alır insan canı,
Bulud tökür göz yaşını.

Bir tərəfdən leysan səsi,
Hökm eləyir bir vahimə.
Dəli edir görən kəsi,
Hər kəs bənddir bircə himə.

Qorxu düşür canımıza,
Çalxalanır dünya hər an.
Lap yeriyir qanımıza,
Yer yerində durmur inan.

# Kasıb kimdi

Mən deyirəm həqiqəti,
Yaxşı bilir onun özü.
Kimin çoxsa var- dovləti,
Səhf də olsa keçir sözü.

Varlının var hər imkanı,
Qiymətlidir yaman canı,
Kasıb niyə olur adam?
Dəyərsiz bir sudur qanı.

Nə istəsə varlı edər,
Varlının var ixtiyarı.
Balta ilə üstə gedər,
O, kasıbı bölər yarı.

Varlını doğubdur ana.
Kasıb isə çıxıb yerdən.
Gəldik çıxdıq nə zamana?
Yer yarılıb o an birdən.

Hamı deyər axşam, sabah,
Varlı yarsın qoy başını.
Kasıbındır bütün günah,
Töksün onun göz yaşını.

Haqq eləyib, balta atıb,
Gərək kasıb dinməz dursun.
Aralığı yaxşı qatıb,
Varlı onun boynun vursun.

## Mənalı yaşa

Verilən bu ömrü mənalı yaşa,
Nə qədər toplasan varı, dövləti.
Bir gün dönəcəksən onsuz da daşa,
Heç nəyin köməyi olmayır qəti.

Qursan da nə qədər gözəl ev - eşik,
Bir gün burda qoyub sən gedəcəksən.
Hər zaman hər şeyə çəksən də keşik,
Dünyanı bir yolluq tərk edəcəksən.

Sənə aid olan əşya nə varsa,
Zülmətə dönəcək o şən otağın.
Bax bu dediklərim əgər olarsa,
Artıq boş qalacaq sənin yatağın.

Vay o gündən ki, bir insan ölə,
Hər şeyi çıxarıb atarlar çölə.
Artıq şəkillərdən boylanacaqsan.
Ancaq xəyallarda oyanacaqsan.

Getdikcə şəkillər itib gedəcək.
Qurduğun evində gəzəcək yadlar.
Dünya öz yoluna davam edəcək,
Tamam dəyişəcək çağrılan adlar.

## Anlamadım, ürək səni

Gah danışdım, gah dinlədim!
Mən istədim olam bir mərd.
Gecə - gündüz hey inlədim,
Ancaq ürək bağladı dərd.

Dərdlər oldu büküm-büküm,
Heç baxmadı gözdə yaşa.
Ağır oldu, ürək yüküm,
Bəzən ürək döndü daşa.

İmkan vermir bir al nəfəs,
Gah çırpınır, gah çağlayır.
Yeri olur sanki qəfəs,
İçin - için gah ağlayır...

Ürək yazır tez qədəri.
O başlayır tez-tez vurur.
Sevinc qovur qəm, kədəri,
Bir də gördün ürək durur.

Anlamadım, ürək səni,
Sevincdən də sən əsirsən.
Hey incitdin elə məni,
Ürək, hara tələsirsən?

## Özümdən aldın

Sən mənim özümü özümdən aldın,
Könlümdə qurmusan gözəl bir saray.
Qəlbimi sinəmdən gizlicə çaldın,
Eşqinlə aləmə saldın hay-haray.

Ürəyim dinlədi bu harayını,
Bax, mənim özümü özümdən aldın.
Qoruyub saxlayır eşq sarayını,
Qurduğun sarayda sən məskən saldın.

Ucaldın hər zaman mənim gözümdə,
Yaradan qorusun amandır, aman.
Axtardım özümü tapdım özündə,
Yaşasın eşqimiz bizim hər zaman.

## Yenidən göz açdın

Yenidən dünyaya göz açdın, oğlum!
Mən yenə istədim Allahdan səni.
Əcəlin əlindən sən qaçdın, oğlum!
Oğulsuz qoymadı yaradan məni.

Hər bir şey xoş gəlir indi gözümə,
Yenidən dünyaya göz açdın, oğlum!
Yaradan bəxş etdi səni özümə,
Ömrümə günəş tək nur saçdın, oğlum!

Səninlə alıram, ay oğlum nəfəs,
Nələr çəkdiyimi biləmməz heç kəs.
O günlər dönməsin geri bir daha.
Mənim can borcum var gözəl Allaha.

Özümü mən sənə demişdim qurban,
Kəfəni zülümlə sən dəldin, oğlum!
Canımı verməyə hazıram hər an,
Dünyaya yenidən xoş gəldin, oğlum.

# Tanımaz səni

Hər zaman can deyib, can eşitdiyin,
Dar gündə onunla birgə getdiyin,
Həmişə dadına ilk sən yetdiyin,
Adam var gün gələr tanımaz səni.

Onuncün gülləyə versən sinəni,
O anda ürək tək sevəcək səni,
Ancaq tez unudar o dünənini,
Adam var gün gələr tanımaz səni.

Hər gündə birlikdə yemək yediyin,
Tikəni onunla sən tən böldüyün,
Birlikdə ağlayıb, birgə güldüyün,
Adam var gün gələr tanımaz səni.

Yaradan verəcək ona imkanı,
Deyəcək gəl indi sən onu tanı,
Dünənki adamı gəzərsən, hanı?
O adam baxarsan tanımaz səni!

Bu fani dünyanın belədir işi,
Fərqlidir dünyada olan hər kişi,
Yadına salmayır çoxu keçmişi,
Adam var baxarsan tanımaz səni.

## Nəsihət

Heç kimə heç zaman qazmayın quyu,
Qazdığın quyuya özün düşərsən.
Sonda boğularsan çox olar suyu,
Cəhənnəm odunda yanıb, bişərsən.

Hiyləylə, kələklə gəzib, dolanma,
Nə də ki, özünü çox bilmiş sanma.
Deyirlər sirkə də tünd olan zaman,
Çatladar qabını bax onda inan.

Heç bir vaxt qəlbinə toplama kini,
Dinini dəyişmə sən başqa dinə.
Yaxına buraxma şeytanı, cini,
Yalandan baş vurma küçəyə, tinə.

Biləsən, İslamdır bizim dinimiz!
Əməllə kimsənin evini yıxma.
Bizləri məhv edər ancaq kinimiz,
Pis niyət tutaraq səfərə çıxma.

Böyüyün, kiçiyin sən bil yerini,
Zəhərli ilan tək heç kimi çalma.
Həmişə özündə saxla dilini,
Günahsız insanın ahını alma.

## Niyə yazıldı

Yazmısan bəxtimi qaradan qara,
Dərdimi götürüm mən gedim hara?
Baxmıram gözümün axan yaşına,
Gedərəm dünyanın lap o başına.

Heç nəyin olmayır ancaq mənası,
Dərdimi söylədim mavi dənizə.
Dərdlərlə bir gedir çünki Rənası,
Dalğalar şiddətlə çırpındı dizə.

Dəniz dalğalandı, bir anda coşdu.
Sanki bu dənizdə bir tufan qopdu.
Dərdimi dərdinin içinə qoşdu,
Gözümdən axan yaş sulara hopdu.

Dənizin suları daşdı, çağladı,
Sığmadı dəryaya mənim kədərim.
Mənimlə birlikdə o da ağladı,
Bəs niyə yazıldı belə qədərim?

# Dünyanın dadı

Deyirlər dünyanın şirindir dadı,
Şirini şirindir, acısı zəhər.
Gördüm ki, yalandan çıxıbdır adı,
Günləri veririk yola bir təhər.

Daddıqca dünyanın şirin dadından,
Acısı çıxmayır heç vaxt yadından.
Şirinin dadından məst olur insan,
Dünyanın xoşbəxti olursan o an.

Acı dad yetirir birdən özünü,
Gördüyün günləri burnundan tökür.
Hökümlə insana deyir sözünü,
O zaman bu dünya gözündə çökür.

Ömürlük acıyla şirin qardaşdır,
Məcburi dadırıq bu iki dadı.
Onlar ayrılmayan dosdur, yoldaşdır,
Dünyanın yalandan cıxıbdı adı.

## Yaşın gözəlliyi

Büründü bu könlüm dumana, çənə,
Ürəyim kədərlə döyünür yenə.
Nə deyim, nə deyim, ey dünya sənə?
Gör nələr yaşatdın, axı sən mənə.

Necə də sürətlə keçir bu zaman.
Kövrəlib qəlbimin incə telləri.
Elə bil körpə bir uşağam inan,
Mən yola salmışam neçə illəri.

Yaşımın üstünə yenə gəlir yaş,
Getdikcə titrəyir əlim, ayağım.
Qalmayıb qara tük, ağarıbdı baş,
Dolaşır elə bil dilim, dodağım.

İzləyir qocalıq məni anbaan.
Diqqətlə baxıram yenə güzgüyə.
Güzgüdən boylanır başqa bir insan,
Elə bil baxıram sanki özgəyə.

Özümə verirəm ancaq təsəlli,
Verirəm özümə mən ürək-dirək,
Arxada qalıbdı çoxdandan əlli,
Hər anın qədrini biz bilək gərək.

Yaşların özünün var özəlliyi!
Qocalıq qoyublar onun adını.
Ələ də düşməyir heç gözəlliyi,
Kaş dada biləydi hamı dadını.

## Kimlərdən istəyim

Heç cürə qalmayıb mənim əlacım,
Göydəki buluddan istəsəm səni.
Mən səni kimlərdən istəyim bacım?
Yağışa bələyə bilərsən məni?

Mən sənə nə qədər layla oxudum,
İndi əməl eylə mənim sözümə.
Gözümün yaşından bulud toxudum,
Buluddan qoparaq qayıt özümə.

Əsən küləklərdən istəsəm səni,
Yenə də nigaran qoyarsan məni?
Kaş külək olaydın, coşaydın birdən.
Yanımda görəydim səni qəfildən.

Küşmüşəm qayadan, o mərmər daşdan,
Qaytara bilmədi heç biri səni.
İncidim gözümdən tökülən yaşdan,
Sənsizliyə məhkum eylədi məni.

Sənsiz dünya mənə acıdır-acı,
Eşitmir heç kimsə mənim sözümü.
Mən səni kimlərdən istəyim, bacı?
Qara bir mərmərə dikdim gözümü.

O daş da səs vermir mənim səsimə,
Bir şəkil o daşdan sakitcə baxır.
Elə bil durubdu sanki qəsdimə,
Gözümün yaşları sel olub axır.

## Gəzdirirsən daş

Ürəyim sıxılır sanki qəfəsdə,
Bütün ümüdlərim puç olub getdi.
Səni gözləyəcəm lap son nəfəsdə,
Xəyalın dumanlar içində itdi.

Gözlərim yoldadır, qulağım səsdə,
Kaş ki, kor olaydı mənim bu gözüm.
Mən günah görmürəm, inan heç kəsdə.
Çünki aşiq oldum sənə mən özüm.

İndi lal olubdu tökdüyün dillər,
Quruyub əlinlə verdiyin güllər.
Bir-bir dəyişəcək bütün fəsillər.
Sənsiz keçəcəkdir biləsən illər.

Bəlkə sən deyəsən kimdədir günah?
Mən qərar vermişəm sonunda bir baş.
Sinəmi yandırır çəkdiyim bu ah,
Ürəyin yerinə gəzdirirsən daş.

## Üzüklə qaş

Olduq ömür - gün yoldaşı.
Ömür boyu dedim sənə.
Sən üzüksən, mən də qaşı,
Həyat sənlə xoşdu mənə.

İsinirəm hey istinə,
Ürəyimiz bir döyünür.
Kor olaram mən tüstünə,
Bir-biriylə çox öyünür.

Qaş üzüklə gözəl olur,
Məlhəm təki qəlbə dolur.
Qaş üzükdən qopan zaman,
Ömür xəzan olur o an.

Qoy parlasın üzükdə qaş.
Bir-birinə olsun yoldaş.
Hərənin var öz yoldaşı.
Bir olsunlar addımbaşı.

## Qadın müqəddəsdir

Yığışdır, ey qadın bir az özünü,
Ötürdün ərini evdən eşiyə.
Diqqətlə gəl dinlə indi sözümü,
Sonra da zəng etdin evli kişiyə.

Qapılar döymüsən, elci getmisən,
Biabır eyləmə evli adını.
Oğlunun toyunu dünən etmisən.
Sənə tay etmərəm ərsiz qadını.

Gəl indi sən düşün bir azca dərin,
Evli kişilərlə olmasın işin.
Axı var evində özünün ərin!
Eşidər bu işi qorxmursan, kişin?

Sən ləkə gətirmə təmiz adına,
Təmiz bir adla bax elin gözünə.
Bu işlər yaraşmaz evli qadına,
İndi nə deyirsən özün-özünə?

Qadın müqəddəsdir, anadır qadın!
Onda gözəldir ki, qadının özü.
Pisliklər içinə düşməsin adın,
Yad kişi axtarmır çöllərdə gözü.

# Qızım

Ürəyim hər zaman sənlə döyünür.
Sən mənim biricik bir mələyimsən.
Səninlə fəxr edir, sənlə öyünür,
Həmişə özümün çox gərəyimsən.

Gözümün nurusan, başımın tacı,
Könlünün bağında hər an gül açsın.
Ürəyin dadmasın heç zaman acı,
Ömrünə bu güllər qoy ətir saçsın.

Ömrünün yolunda günəş parlasın,
Evində böyüyür iki övladın.
Xoşbəxtlik evində su tək çağlasın,
Şəhanə qoyulub, ay qızım adın.

Adın tək şəhanə bir qızsan özün,
Sevmişəm özünü, o göz -qaşını.
Aləmə səs salıb qapqara gözün,
Təbrik eyləyirəm, qızım yaşını.

## Cavanlığım uzaqlaşır

Asta-asta, bala- bala.
Heç baxmayır gözdə yaşa.
Düzəlmişəm artıq yola,
Ömür çatır daha başa.

Bu həyatdan həzz almışam,
Əlimdə var artıq əsa.
Vallah, daha qocalmışam,
Daşır səbrim olan kasa.

Cavanlığım uzaqlaşır,
Öz yerini verir ona.
Qocalıqla qucaqlaşır,
Deyir vaxtım catıb sona!

Gör dünyadan kimlər keçdi?
Həyat güllü laləzardır.
Bu yalançı dünya heçdı,
Sonda yerin bir məzardır.

## Naz eyləmə

Gəl tut sən mənim əlimdən,
Artıq çıxıb söz dilimdən,
Yar gəzirəm öz elimdən,
Daha mənə naz eyləmə!

Söz demərəm sözün üstə,
Sən nə desən gözüm üstə,
Gəl anamdan məni istə,
Daha mənə naz eyləmə!

Əhd eylədik göy çəməndə,
Gözün qalıb, vallah məndə,
Bəlkə düşün biz az sən də,
Daha mənə naz eyləmə!

Bizdə hamı bu cür edər,
Oğlan qıza elçi gedər,
Gözləmişəm mən bu qədər,
Daha mənə naz eyləmə!

Elçiliyi mənmi edim?
Bəlkə sizə özüm gedim?
Son sözümü artıq dedim,
Daha mənə naz eyləmə!

## Sevgi həsrəti

Nə qədər keçsə də illər aradan,
İllər xəstəsiyəm yaram qan verir.
Hələ də qan gəlir bax bu yaradan,
Bir gözəl səninçün burda can verir.

Bu dərdim acıdır, acıdan acı,
Sənsiz keçən günlər, ötən gecələr.
Dərdimin səndədir bil ki, əlacı,
Sanki ürəyimə qəm-kədər ələr.

Gəzirəm də dünyanı, bütün hər yanı,
Gələydin yarama məlhəm olaydın.
Dərdimin səndədir bil ki, dərmanı,
Su kimi qəlbimə yenə dolaydın.

Nə gündüz bilirəm, nə də ki, gecə,
Məni çox üzdü bu sevgi həsrəti.
Bilmirəm həsrətə mən dözüm necə?
Qoruya bilmədik biz məhəbbəti.

## Atamı istəyirəm

Yandı bu ürəyim, döndü kömürə,
Təsəlli edəcək qalmayıb sözüm.
Nə deyim, ay Allah belə ömürə?
Bu rəsmin önündə acizəm özüm.

Qəbri qucaqlayıb şəhid balası,
Artıq toran düşüb, şər qarışıbdı.
Əlacsız boylanır onun babası,
Ürəyi od tutub lap alışıbdı.

Qalmayıb əlində daha əlacı,
Oğlu eşitməyir artıq sözünü.
Sonuna çıxacaq onun bu acı,
Ağlayıb, yumubdu nəvə gözünü.

Bağrına basıbdı məzar daşını,
Könlünə düşübdü ata qucağı.
Köksünə sıxıbdı körpə başını,
Atasız isinmir evdə ocağı.

Onun da ataya var ehtiyacı,
Babası söyləyir: sağ olsun vətən!
Bütün xoş günləri olubdu acı,
O, deyir atamı istəyirəm mən!

## Sən olaydın

Gecə keçir, ay qaranlıq,
Ətraf çiskin, sıx dumanlıq,
Fikrə daldım mən bir anlıq,
Kaş bu gələn sən olaydın!

Yarılaydı duman, bu çən,
Bir möcüzə görəydim mən,
Bax özümə dönəydin sən,
Kaş bu gələn sən olaydın!

Nə etdinsə özün etdin,
Ürəyimi aldın, getdin,
Bir dumanlı gündə itdin,
Kaş bu gələn sən olaydın!

Səni məndən alan duman,
Yoxmu daha bir az güman?
Dəli oldum artıq inan,
Kaş bu gələn sən olaydın!

Qalmayıbdı mənim gücüm,
Sənlə yoxdur heç bir öcüm.
Mən dünyadan necə köçüm?
Kaş bu gələn sən olaydın!

Çarəsizcə baxdım çənə,
Gözləyərəm, səni yenə,
Kaş dönəydin vallah mənə!
İndi gələn sən olaydın!

# Qocalıram mən

Baxıram saçıma, ağarıb başım,
Pis görür gözlərim, itib yaddaşım.
Təqvimə baxıram, çoxalıb yaşım,
Görəsən doğurdan qocalıram mən?

Əsir ayaqlarım, titrəyir əlim,
Əyilib qamətim, bükülüb belim,
Hərdən topuq vurur, görürəm dilim,
Görəsən doğurdan qocalıram mən?

Güzgünün mənimlə var ədavəti,
Alıb gözəlliyi məndən xəlvəti,
Boynuma heç alan deyiləm qəti,
Görəsən doğurdan qocalıram mən?

Baxıram özümə hərdən bir anlıq,
Deyəsən tərk edib məni cavanlıq,
Qonağam dünyada az bir zamanlıq,
Görəsən doğurdan qocalıram mən?

## Eşq dəlisiyəm

Dön bir bax, gözəlim mən binəvaya,
Həsrətin yandırıb məni etdi kül.
Dərdindən dönmüşəm lap avaraya,
Nə olar bir dəfə sən üzümə gül.

Məcnun tək gəzirəm çölü çəməni,
Kaş görə biləydim bircə yol səni,
Fikirli baxıram daşa, divara,
Adımı qoymusan niyə avara?

Avara deyiləm, eşq dəlisiyəm!
Aşiqəm, gözəlim sənin özünə.
Sənə vurğun olan mən birisiyəm,
Möhtacam bir kəlmə şirin sözünə.

İstər avara de, istərsə Məcnun,
Ülvi bir sevgidir bunun da adı.
Sonuna çıxacam biləsən bunun,
Birlikdə gəl dadaq bu gözəl dadı.

## Səninçün gəlmişəm

Sənədir, əzizim, sənədir sözüm,
Heç bir şey görünmür sanki gözümə.
Səninçün gəlmişəm dünyaya özüm,
Mat qaldım məndə ki, olan dözümə.

Eşqindən olmuşüm dəli, divanə,
Bu könül bağımın gəl ol bağbanı.
Könlümün eşq bağı olub viranə,
Təsəvvür etmirəm sənsiz bir anı.

Bəzən lal oluram, susub qalıram,
Bəzən də coşuram, ilham alıram.
Gizlicə-gizlicə fikrə dalıram,
Sevgimlə aləmə haray salıram.

Xəbərdar eyləyim, əzizim səni,
Hər yerdə tək səni axtarır gözüm.
Yaradan səninçün yaradıb məni,
Səninçün gəlmişəm dünyaya özüm.

## Unutmaq olarmı

Göz açdı dünyaya bir igid oğlan,
Bayrama bələndi lap Ağcabədi.
Hamıya çox sevinc gətirdi o an,
Adını tarixə saldı əbədi.

Cəmalədd idi həmin qəhrəman,
Döyüşə könüllü getmişdi özü.
Tarixi qanıyla yazdı o, inan!
Heç nədən qorxmurdu igidin gözü.

Qırx iki əsgərə komandir oldu,
Üzbəüz döyüşdə o, qalib çıxdı.
İgidlik göstərib qəlblərə doldu,
Düşmənin leşini üst-üstə yıxdı.

Son döyüş yerləri oldu Cəbrayıl,
Erməni gülləni od tək ələdi.
Qəfildən üstünü kəsdi əzrayıl,
Hamsını yerində qana bələdi.

Su kimi yerlərə axdı qanları,
Tarix unutmayır qəhrəmanları.
Vətənin uğrunda getdi canları,
Unutmaq olarmı bu insanları?

# Ana ağlayır

Bir ana ağlayır məzar başında,
Qoyubdu əlini məzar daşına.
Balası ölübdü çox gənc yaşında,
Bələyib məzarı o, göz yaşına.

Ağırdır ananın dərdi, azarı,
Göz yaşı su kimi axır dupduru.
Gözünün yaşıyla yuyur məzarı,
Ağlamaqdan gedib gözünün nuru.

Bu yükü daşıya bilməyir ana,
Səsləyir, hay vermir qızı səsinə.
Hönkürüb ağlayır o yana-yana,
Dağ çəkir ananın düz sinəsinə.

Bu kədər açıbdı sinədə yara,
Nə qədər illər də keçsə aradan,
Anayla bir gedir getsə də hara,
Hələ də qan gəlir həmin yaradan.

## Dönəcək ömrüm nağıla

Nə gündüz bilirəm, nə də ki, gecə.
Ömrümə bir payız küləyi əsir.
Gözümdə xəyallar canlanır necə?
Bilmirəm günlərim hara tələsir?

Hər ötən bir günüm ömrümdən gedir,
Bu payız küləyi dönür tufana.
Ömür sarayında tufan hökm edir,
Həyatım bağlıdır sanki bir ana.

Əsdikcə bu külək, qopduqca tufan,
Bir himə bənddir ki, saray dağıla.
Ömrümün sarayı uçur anbaan,
O zaman dönəcək ömrüm nağıla.

## Baldan da şirindir

Bəxş edib yaradan səni özümə,
Sən mənim ətirli qönçə gülümsən!
Mələk tək dəyirsən, bala gözümə,
İstərəm xoşbəxt ol, hər an gülüm sən!

Qorudum mən səni qardan, borandan,
Yaradan xoş yazsın hey qədərini.
Əsmişəm üstündə doğulan andan,
Silsin ürəyindən qəm, kədərini.

Baldan da şirindir, ay bala dadın,
Yaradan verdiyi ən əziz paysan.
Qəlbimə yazılıb ömürlük adın,
Parlayan ulduza, günəşə taysan.

## Mən olmuşam

Sən şam idin, mən pərvanə,
Gətirmədin heç bəhanə,
Günlər keçdi çox şəhanə,
Odda yanan mən olmuşam.

Pərvanənin ömrü azdı,
Taleyimi Allah yazdı,
Məzarımı bir şam qazdı,
Odda yanan mən olmuşam!

Mum içində kəndir yandı,
Pərvanəni bir heç sandı,
Özün pozdun bizim andı,
Odda yanan mən olmuşam!

Sən heç məni görmədinmi?
Mənə çələng hörmədinmi?
Mən öləndə ölmədinmi?
Odda yanan mən olmuşam!

Bir gün könlün gəzər məni,
Axtararsan göy çəməni,
Kaş görəydim onda səni,
Görəcəksən kül olmuşam!

## Qocalıram mən

Nə yaman ötüşür bu aylar, illər?
Keçmişə baxıram indi bir anlıq.
Bilmədim heç necə keçdi fəsillər?
Əlvida söyləyir sanki cavanlıq.

Gəncliyi nə zaman vermişəm bada?
Baxıram, qocalıq qapını kəsib.
O zaman düşmürdü qocalıq yada,
Ömrümə bir payız küləyi əsib.

Saçıma dən düşüb, ağarıb başım,
Gəncliyim olubdu elə bil dünən.
Sevindim hər ildə gələndə yaşım.
Ağlıma gəlmədi qocalıram mən.

Qocalıq dayanıb düz astanada,
Sahibəm nənə tək gözəl bir ada.
Kaş hər kəs dadaydı həmin bu dadı.
Alaydı ağsaqqal, ağbirçək adı!

## Yaxşını pis görür

Könlüm bir dəryadır, bəzən çağlayır.
Bu dəli könlümə gah sükut çökür.
Bəzən kədərlənir, qəmdən ağlayır,
Dərd, kədər könlümü yumaq tək sökür.

Bəzən də sözlərdən şeir toxuyur,
Könlümün bülbülü eyləyir fəqan.
Dönərək bülbülə nəğmə oxuyur,
Heç susmaq bilməyir onda çox zaman.

Hər şeyi bəxş edir bizə yaradan,
İnci tək tökülür qəlbimdən sözlər.
Bu dəli könlümü odur oynadan,
Sevincdən parlayır o zaman gözlər.

Gözlərdən oxunur kədər də, qəm də.
Ürəyin kordursa biləsən özün.
Görünür batıbsan dumanda, çəndə,
Yaxşını pis görür bax onda gözün.

## Görüş yerimiz

Gəzirəm yenə də bu göy çəməni,
Hər tərəf olubdu bax bir tamaşa
Görüş yerimizdə gözlədim səni,
Şirin xəyallarla qaldım baş - başa.

Çəmənlik geyinib yaşıl donunu,
Görünmür yenə də ucu, bucağı.
Heç görmək olmayır onun sonunu,
Bizlərə açıqdır hər an qucağı.

Görüş yerimizdə dayandım, durdum,
Şahiddir bu ağac saf sevgimizə.
Eşqimin möhrünü mən burda vurdum,
Qürurla boylanır yenə də bizə.

Görüşə gedəndə belə edərdin,
Nəvəynən gəlmişik indi bu yerə.
Həmişə əlində güllə gedərdin.
Güllərdən gözəldir nəvəm min kərə!

## Gözləyənin var

Həsrətin qəlbimdə qübar bağladı,
Gəlməyir arada səsin-səmirin.
Ürəyim səninçün hər an ağladı,
Mənimçün yoğrulub sənin xəmirin.

Baxışım dikilib yolunda qalıb,
Boylanıb baxıram sağa, soluma.
Gözümdən axan yaş bir cığır salıb,
Qəfildən girəydin kaşki qoluma.

Yumaydım, açaydım indi gözümü,
Biz həsrət qoymuşuq bunun adını.
Səninlə görəydim yenə özümü,
Gəl dadaq sevginin şirin dadını.

Taqətim qalmayıb, biləsən daha,
İşıqlı bu dünyam sənsiz olar dar.
Gəlişin xoş olar böyük Allaha,
Biləsən, yolunu gözləyənin var.

## Dön mənə

Gözlərim yoldadı, qulağım səsdə,
Dərdindən olmuşam illərdi xəsdə,
Yerini bilməyir sorduğum kəs də,
Nə olar, dön mənə, əzizim yenə.

Olmuşam dərdindən dəli - divanə,
Od düşüb könlümə olub viranə,
Bir daha gətirmə mənə bəhanə,
Nə olar, dön mənə, əzizim yenə.

Dərdindən düzlərə düşmüşəm özüm,
Sən gedən yollara dikilib gözüm,
Nitqim quruyubdu, yox olub sözüm,
Nə olar, dön mənə, əzizim yenə.

Bizim haqqımızda gedir söhbət, söz,
Nə qədər söyləyim ürəyimə döz?
Bu yanan ürəyim artıq olub köz,
Nə olar, dön mənə, əzizim yenə.

Dönməsən közlər də onda kül olar,
Həmişə sevdiyin bu gül də solar.
Əl çək inadından deyirəm sənə,
Nə olar, dön mənə, əzizim yenə!

## Xəbər verin

Arxanca dolanan, səni səsləyən,
Biləsən, bax mənəm, mənim səsimdir.
Hər an səni sevən, hörmət bəsləyən,
Mənim bu ürəyim, bu nəfəsimdir.

Hər zaman mən səndən ilham almışam,
Yolumu getdiyin yoldan salmışam.
Heç özüm bilmədən fikrə dalmşam.
Bu dərdin içində batıb qalmışam.

Gəzirəm doyunca qarabaqara,
Əksini görürəm baxsam da hara,
Gedib xəbər verin  sevgili yar,
Fikrimdən dönmərəm çəksə də dara.

## Rəvan
*(şəhid)*

Vətənçün böyütdün, ana Rəvanı,
On doqquz yaşına oğlun dolubdu.
Canıyla qorudu o, Zəngilanı.
Zəngilan uğrunda şəhid olubdu.

Bir əsgər böyütdün igid, qəhrəman,
Torpağın uğrunda verdi canını.
Canından  çox sevdi vətəni Rəvan.
Canında daşıyır sənin qanını.

Qurbanam mən onun gülən gözünə,
Əməyin var onun hər bir anında.
Bənzəyir necə də sənin özünə,
Kaş ola biləydi yenə yanında.

Onu sən böyütdün, ey gözəl qadın!
Fəxr elə onunla, sil göz yaşını.
Şəhid anasıdır indi də adın,
Həmişə vüqarla dik tut başını.

## Özünü istərdik

Bu bayram sənindir, əziz babamız.
Yaxşı ki, gəlmişdin bu dünyaya sən.
Səninlə fəxr etdik bizim hamımız!
Səni çox sevirlər nəvən, nəticən.

Vətəni qorudun, şirin canınla.
İtirdin qolunu vətən yolunda.
Torpağı suladın qızıl qanınla,
Bir qolun olmadı sənin solunda.

Tək qolla böyütdün övladlarını,
Layiqli övladlar verdin vətənə.
Şərəflə qorudun igid adını,
Şan-şöhrət gətirdi onlar da sənə.

Veteran adını qanınla aldın,
Kişi tək yaşadın, kişi tək öldün!
Adını ömürlük tarixə saldın!
Vətənin yolunda bir daşa döndün.

Bu daşın önündə biz əyirik baş,
Gör nələr çəkibdi həyatda başın.
Özünü istərdik, istəmirik daş,
Mübarək olsun qoy bayramın, yaşın.

## Gecələr

Gecə qaranlıqdı, yaman qaranlıq,
Dərd üstə dərd gələr sanki gecələr.
Xəyallar dolaşıb gedər bir anlıq,
Bu dərdlər səninlə birgə gecələr.

Nə gündüz, nə gecə buraxmaz səni.
Gecələr düşərsən elə bil dara.
Ürəyin dərdlərin olar məskəni,
Suallar baş alıb gedərlər hara?

Nə gecə qurtarar, nə sual bitər,
Deyirlər gecənin bir ildir biri.
Qaranlıq içində xəyallar itər,
Sabahı açarsan gözünlə diri.

Hər işin özünün var öz qaydası,
Hamı gözəl bilir bunları düzü.
Yuxusuz gecənin yoxdu faydası,
Qaranlıq gecənin var bir gündüzü.

## Gözəldir sevib-sevilmək

Gözündən qığılcım keçdi gözümə,
Ürəyim odların oldu məskəni.
Təccüblə baxıram indi közümə,
Bir damcı qığılcım yandırdı məni.

Ürəyim bu közdən yandı, alışdı,
İlk dəfə daddım mən sevgi dadını.
Bir ovuc köz olub, külə qarışdı,
Qəlbimə köz ilə yazdım adını.

Həmişə adını sevgiylə andım.
Lazımdır sevginin qədrini bilmək.
Özümü dünyanın xoşbəxti sandım,
Hər zaman gözəldi sevib - sevilmək.

## Yenə səni sevəcəyəm

Dünya aləm ağlasa qan,
Son nəfəsdə versəm də can,
Mən deyirəm bil ki, inan!
Yenə səni sevəcəyəm!

Eşq odunda lap yanmışam,
Eşqi ülvü, saf sanmışam,
Səni hər an mən anmışam,
Yenə səni sevəcəyəm!

Söz vermişəm sənə bir vaxt,
Mən əhdimdən dönməyəcəm,
Versələr də qızıldan taxt.
Yenə səni sevəcəyəm.

Bağlamışdıq əhd-peyman,
Səninlədir ürək hər an.
Dağılsa da bütün cahan
Yenə səni sevəcəyəm!

## Hara tələsirsən

Hələ sağdır mənim canım.
Ömür, hara tələsirsən?
Damarımda coşur qanım,
Külək kimi hey əsirsən.

Nala-mıxa vurma, ömür,
Qoy yaşayım doya-doya.
Bu dünyamı etmə kömür,
Günlərimi əlvan boya.

Su tək axıb hey gedirsən,
Günlərimi sən kəsirsən.
Heç bilmirəm nə edirsən,
Ömür, hara tələsirsən?

Dünya olub tamam fani,
Arzu, istək yarım qalır.
Ölüm gəlir qəfil, ani,
Ömür gedir, haray salır.

Yox elədin gəncliyimi,
Qocalığı qoy yaşıyaq.
Əldən aldın dincliyimi,
Qoy xoşbəxt ömür daşıyaq.

## Bir də gəl

Darıxdım səninçün, darıxdım yaman,
Özünlə apardın ləzzəti, dadı.
Sənsiz bu dünyamız boş imiş inan,
Yoxluğun yandırdı qohumu, yadı.

Doğum günün gəlib indi yenə də.
Sənli günlərimiz düşür yadıma.
Ağlamaq qalıbdı ancaq mənə də.
Heç cürə çatmırsan daha dadıma.

Bacıya arxadı, dayaqdı qardaş.
Kaş bu gün olaydın yenə yanımda.
Bacının yolunda mayakdı qardaş,
Sənsizlik dolanır hər an canımda.

Darıxdım səninçün, darıxdım yaman,
Yalvarıb deyirəm, bax axır, əvvəl.
Ürəyim səninlə döyünür hər an,
Yolun düşsə bu dünyaya bir də gəl.

## Əbədi deyil cavanlıq

Cavanlıq əbədi deyil heç zaman,
Fikirləş həmişə düşün, bax bir az.
Günbəgün qocalır bütün hər insan,
Cavanam deməklə cavanlıq olmaz.

Hamıya yazılıb belə bir qədər,
Birlikdə dolurlar saf ürəyinə.
Sevinclə qardaşdır qəm ilə kədər,
Qocalıq minəcək düz kürəyinə.

Yaşının üstünə gələcək yaşın,
Nə qədər başıma mən qoysam həna.
Başına dən qüşüb ağarar basin,
Görərsən qocalır yenə də Rəna.

Baxıram dünyaya indi bir anlıq.
Nə qədər ürəyin olsa da cavan.
Heç kimə qalmayır vallah cavanlıq,
Qocalıq yerini alır anbaan.

## Anandır, anan

Ən gözəl mələkdir ananın özü,
Sənə həyat verən anandır, anan!
Qəlbindən silinməz heç zaman izi,
Həmişə dərdinə yanandır anan.

Doqquz ay bətnində bəsləyir səni,
Gecə də, gündüz də çəkir keşiyin.
Şirin bir dil ilə səsləyir səni,
Hər zaman başında olur beşiyin.

Analar övladla alırlar nəfəs,
Qanında dövr edir ananın qanı.
Övladsız bu həyat olur bir qəfəs,
Canına bağlıdır həmişə canı.

Ən rahat məkandır ana qucağı,
Həmişə evindən qoy gəlsin səsi.
Ən isti ocaqdır ana ocağı,
Sənə bəs edəcək quru nəfəsi.

## Xəyalımdan getmir

Gah küsürəm, gah umuram,
Qalmayıbdı məndə inam.
Hər şeyə mən göz yumuram,
Doğurdanmı ölüb anam?

Yenə dəyməyir gözümə,
Deyilənlər olsun yalan.
Söyləyirəm öz-özümə,
Kaş desinlər sağdır anan.

Verməyir heç səsimə səs.
İstəyirəm tutam əlin.
Ovundurur məni hər kəs,
Qucaqlayam hər an belin.

Xəyalımdan bir an getmir,
Ürək gəzir qucağını.
Heç nə əvəz edə bilməz,
İsti ana ocağını.

## Bahar bayramı

Bayramın var gözəl abu – havası,
Hava gah qarışır, gah dumanlaşır.
Qurtarmır qış ilə yazın davası,
Güc-bəla qış ilə bahar anlaşır.

Nə qədər yağsa da yağış, ya da qar,
Ev başı hər yerdə tonqal qalanır.
Yenə də özünü göstərir bahar,
Şənliklər şənliyə sanki calanır.

Kosayla kecəlin gəlir gur səsi,
Uşaqlar evlərə papaq atırlar.
Aləmə yayılır bahar nəğməsi,
Ləpəni şirniyə onlar qatırlar.

Kimisi gizlicə qapı dinşəyir,
Səməni bəzəyir hər bir masanı.
Kimi aş dəmləyir, evdə işləyir,
Həvəslə gözləyir hamı kosanı.

Xoş gəlib elimə bahar bayramı,
Ömrümüz, günümüz keçsin firəvan.
Hər ildə yolunu gözləyir hamı,
Uğurlar gözləsin hər kəsi, hər an.

## Mübarək olsun yaşın

Oyy, balamın balası!
Gəlmisən on beş yaşa.
Ürəyimin parası,
Görüm səni yüz yaşa!

Atanın nübarısan,
Görmüsən on beş bahar.
Ən şirin bir barısan!
Balam, səndən harda var?!

Sən bizə çox əzizsən,
Şirindir nəvə dadı.
Sevimli nəvəmizsən!
Babandan aldın adı.

Layiq ol sən bu ada.
Qurbanam mən adına.
Hörmət et dosta, yada.
Çat arzu, muradına.

Var gözəl bir qardaşın,
Dayaq ol qardaşına.
Tamamdır on beş yaşın,
Vurğunam göz-qaşına.

Deyirəm, dönə - dönə,
Qocal, ağarsın başın.
Qiymətlisən sən mənə,
Mübarək olsun yaşın!

## Xəbərin varmı

Mənimlə ağlayan, mənimlə gülən,
Dərdimi gözümdən oxuyan, bilən.
Hardasan, ay ana, hardasan, dillən?
De görüm, xəbərin bax varmı məndən?

Həmişə sirrini mənimlə bölən,
Dərdlərin əlindən yıxılıb ölən,
Çəkilib hər yandan işığın, şölən,
Xəbərin varmı ki, küsmüşəm səndən?

Yadıma düşmüsən bu gecə yaman,
Xəyalın gözümdən getməyir inan.
Nəvəm də soruşur hardadır anan?
Xəbərin varmı heç saçımda dəndən?

Saçıma dən düşüb ağarıb başım,
Sənsiz sel olubdu gözümdə yaşım,
Sən yoxsan dəmlənmir qazanda aşım,
Xəbərin varmı heç itdiyim çəndən?

Sənsiz bələnmişəm dumana, çənə,
Daha yoxluğuna dözməyir sinə,
Mən sual edirəm, ay ana yenə!
Xəbərin olurmu indi də məndən?

## İnsanlar cürbəcür olur

Heç nəyin doğrusu bilinmir düzü,
Üzünə baxırsan sanki mələkdir.
Görəsən insanın neçədir üzü?
Ancaq bilməyirsən işi kələkdir.

Ürəyi daşdandır, ya da dəmirdən,
İnsan var ürəyi saf bir aynadır.
Çıxmayır şeytanlar verən əmirdən,
Ən xoş arzuları orda qaynadır.

Hər şeyin qoyulur gözəl təməli,
Dünyada cürbəcür olur insanlar.
İşiylə düz gəlir onun əməli,
Həyatı hərəsi bir cürə anlar.

Kimisi yaxşıdır, kimisi yaman.
Yaradan pislərdən qorusun bizi.
Pislərin əlindən amandır, aman,
İnsanın itməsin həyatda izi.

Dünya vəfasızdır, qısadır ömür,
Heç kəs istəməz ki, büdrəyib, əsə.
Kiminin həyati sanki bir kömür,
Yaxşılar nümunə olsun hər kəsə.

## Səs verək

Ən gözəl bir gündür, a dostlar bu gün.
Üz tutsun seçkiyə ürəklə hər kəs.
Birləşək qərarı biz verək düzgün,
Tərəddüd etmədən, almadan nəfəs.

Səs verək yenə də liderimizə!
İti qovan kimi düşməni qovdu.
Bütün torpaqları qaytardı bizə,
Səbirlə onların gözünü ovdu.

Düşmənə hər cürə quyular qazdı,
İlham Əliyevdir prezidentimiz!
Ağılla tarixi yenidən yazdı,
Qürurla səs verək indi ona biz.

## Yaşayın qoşa

Sevincli bir gündür biləsiz bizə,
Yüz qızın içindən seçibdir yarı.
Bir gözəl üz tutur düz evimizə,
O, oldu yarının sevgi nübarı.

Əlində tutubdu yüz bir qönçə gül,
Aliyə rəngini qardan alıbdı.
Sevgi nəğməsini oxuyur bülbül,
Nicatın qəlbinə bir köz salıbdı.

Bu köz ürəyində alışdı, yandı,
Məhəbbət eşqiylə çırpındı ürək.
Nicatım özünü bəxtəfər sandı,
Sevgili yarını tapmışdır demək.

Sizinlə bir vurur mənim ürəyim,
Tutun siz əl-ələ, verin baş-başa.
Xoşbəxtlik, səadət olsun diləyim,
Bir ömür böyunca yaşayın qoşa!

## Ana sevgisi

Elə ki, yumuram gecə gözümü,
Darıxdım, ay ana səninçün yaman.
Görürəm səninlə birgə özümü,
Amandır, yuxudan oyanam aman.

Heç zaman çıxmırsan, ana yadımdan,
Gecələr yuxuda tərk etmə məni.
Sənə yalvarıram tək öz adımdan,
Ürəyim dəli tək istəyir səni.

Qurbanam mən sənin gözəl gözünə,
Ana sevgisidir bu bağın adı.
Sən necə bağladın məni özünə?
Getməyir damaqdan heç zaman dadı.

Sən mənə canından vermisən bir can,
Ay ana, biləsən bu ürəyimsən!
Ruhun ətrafımda dolanır hər an,
Sən məni qoruyan bir mələyimsən.

## Dünya əbədidir

Kədər mənə olub qənim,
Boşalıbdı sağım, solum.
Elə bil ki, batıb gəmim,
Quruyubdu sanki qolum.

Vəfasızdı dünya yaman,
İnsanları bir-bir alır.
Əzrayıla dönür hər an,
Qalanları dərdə salır.

Dünya bizə qurğu qurur,
Yaşayırıq müvəqqəti.
İnsan gedir, özü durur,
İstəmirik ölək qəti.

Hərənin var bir dövranı,
Möcüzəylə dolu anı.
Eləsək də biz üsyanı,
Dünya alır bütün canı.

Ancaq özü əbədidir,
Qara yel tək əsə-əsə.
Möcüzələr məbədidir,
Sirrin verməz heç bir kəsə.

## Oğlum, bağışla

Ey yeri yaradan, göyü yaradan!
Bu qarı, çovğunu qaldır aradan.
Çünki torpaq altda şəhidim yatır.
Şəhidin anası kədərə batır.

İsti evlər olur onlara zindan.
Analar düşürlər dərdə, azara.
Gedir məzarlığa yağış yağan an,
Həsrətlə baxırlar soyuq məzara.

Hər məzar daşından bir igid baxır.
Ağırdır ananın dərdi çox ağır.
Ananın göz yaşı sel olub axır,
Məzarın üstünə çünki qar yağır.

Ana yorğan atır məzar daşına,
Bacara bilmirəm qarla, yağışla.
Soyuq olar deyir onun başına.
Mənim igid oğlum, məni bağışla.

## Cəmillə ölmüşəm mən də

*Şəhid Cəmil Həsənliyə itaf olunub*

Həyatı borcluyuq biz şəhidlərə,
Torpağı şəhidlər var elədilər.
Qurbanam qanları tökülən yerə,
Qanları axanda uf demədilər.

Torpaqlar uğrunda candan keçdilər,
Hər biri ananın görən gözüdür.
Bu yolu fəxrlə onlar seçdilər,
Onlardan biri də Cəmil özüdür.

Onu tək böyütdü Simuzər ana,
Cəmil çox əzablı yollar keçmişdi.
Cəmil bir yanaydı, dünya bir yana,
Özünə gözəl bir peşə seçmişdi.

Həvəslə ev tikdi igid özünə,
Varıydı sevdiyi gözəl bir yarı.
Cənnət görünürdü hər şey gözünə,
Evin kənarına çəkirdi barı.

Ev-eşik, işləri yarımçıq qaldı.
Cəmilim döyüşdə şəhid olmuşdu.
Ölümü hər yana səs-səda saldı.
Ananın gözündə dünya solmuşdu.

Boylanıb baxırdı ana hər yana,
Nə qədər dik tutsam indi başımı.
Ağlayıb deyirdi o, yana-yana,
Gizlədə bilmirəm mən göz yaşımı.

Başım dik olsa da qırılıb belim,
Özünə ev tikdi o, sevə-sevə.
Sağ olsun vətənim, sağ olsun elim!
Mən baxa bilmədim yarımçıq evə.

Hər gündə əlimə bir mismar aldım.
Baxdım ki, yetişdi bir ilin başı.
Yarımçıq o, evdən bir kubik saldım,
Mən söküb yığmışdım iki min daşı.

Daşları zülümlə tək söküb atdım,
Cəmilim yoxdursa o evdə əgər.
Başımı bir il mən bununla qatdım,
Zülümlə tikdiyi ev nəyə dəyər?

Cəmilim tanınır azad vətəndə,
Şəhidlər olsa da şöhrətli, şanlı.
Oğlumla birlikdə ölmüşəm mən də,
Ancaq anaları ölüdür canlı.

## Yeni il

Gözəldir bayramın abu-havası.
Hər yanda bəzəkli yolka qurublar.
El -oba geyinib şənlik libası,
Üstünə al- əlvan işiq vurublar.

Rəngarəng görüntü oxşayır gözü,
Bu bayram hər yana səs-səda salıb.
Gözəllik seyr edir insanın özü,
Yeni il gəlməyə lap az vaxt qalıb.

Bu ili zəfərlə yola salmışıq,
Təzə il hamıya düşərli olsun.
Düşməndən torpağı geri almışıq,
Hər kəsin evinə səadət dolsun.

Əyninə geyinib qırmızı əba,
Şəhidsiz keçsin bu yeni ilimiz.
Müjdələr gətirsin qoy şaxta baba,
Şəhidlər önündə baş əyirik biz!

## Belə etməyin

Bilmirəm mən gülüm, ya da ağlayım,
Əlimə alıram yenə qələmi.
Az qala dəniz tək coşum, çağlayım,
Şeirlər yaranır görən, beləmi?

Etməyin, a dostlar, belə etməyin,
Pisə pis söyləyin, yaxşıya yaxşı.
Səhflərin üstündən keçib, getməyin,
Onsuz da yaxşının tutacaq naxşı.

Suala, nidaya fikir verən yox.
Hər söz yığnağından olmayır şeir.
Sözdən də vergülün sayı olur çox,
Kim də istəyirsə şairəm deyir.

Mənasız yazılar heç paylaşmayın,
Şeir şeir olar, roman da roman.
Şeirdə qaydanı gəlin aşmayın,
Vergülü qoymayın istənilən an.

## Hardasan

Hər an səni anıram,
Həsrətindən yanıram.,
Gözəl mələk sanıram,
Mənim balam, hardasan?

Mələklər mələyisən,
Nənənin ürəyisən,
Həmişə gərəyisən,
Mənim balam, hardasan?

Sevgin hopub qanıma,
Yayılıbdı canıma,
Qurbanam sən xanıma,
Mənim balam, hardasan?

Sənsiz darıxır nənə,
Qəlbən bağlıyam sənə,
Deyirəm dönə-dönə,
Mənim balam, hardasan?

## Dünyadan küsmüşəm

Dünyaya qalmayıb mənim inamım,
Dünya etibarsız, həm də fanidir.
Dağılıb, məhv oldu bütün gümanım,
Hər kəsi yox edən, udan canidir.

Baxıram hər yana mən bir kədərlə,
Alıbdı o, məndən əzirlərimi.
Barışa bilmirəm belə qədərlə,
Sındırıb, bükübdü iki dizlərimi.

Bu qədər olarmı heç ölüm, itim?
Bu fani dünyadan küsmüşəm yaman.
Atasız, anasız qalmışam yetim,
Ölümlə barışa bilmirəm inan.

## Hardasan ana

Dalmışam yenə də xəyallara mən,
Səninçün darıxır ürəyim yaman.
Hardasan ay ana, görən indi sən?
Analar ölməsin amandır, aman.

Neynəyim, yanmayır odun-ocağın,
Üzümdə iz salıb gözümün yaşı.
Könlümə düşübdür isti qucağın,
Səni əvəz edir bir məzar daşı.

İndi yol salmışam qəbirsanlığa,
Həsrətəm ay ana, sənin özünə.
Kaş səni görəydim bircə anlığa,
Qurbanam o daşdan baxan gözünə.

Bağrıma basdım o məzar daşını,
De görüm, hardasan axı ay ana.
Silmədin gözümün axan yaşını,
Qalmışam səninçün mən yana-yana.

## Mübarəkdi bayramımız

Gülümsəyir bu gün üzlər,
Torpaqları geri aldıq.
Ağlamasın bir də gözlər,
Bu dünyaya səda saldıq.

Biz düşməni peşman etdik,
Otuz illik əzab bitdi.
Sona qədər üstə getdik,
İlim-ilim düşmən itdi.

Müharibə olan andan.
Arxasında xalq dayandı.
Öndə durdu baş komandan,
Ordusuna çox inandı.

Şəhid verdik, töküldü qan,
Hamı çatıb öz əhdinə.
Azad oldu Azərbaycan!
Üz tutmuşuq Xankəndinə.

Xalqım gəlib indi cuşa,
Sevinirik biz hamımız.
Azad olub artıq Şuşa,
Mübarəkdir bayramımız!

## Yaxşı ki, gəlmisən

Nə gözəl yaradıb yaradan səni!
Üzündən nur yağır, gözündən ağıl.
Məftun eyləyirsən səni görəni,
Sənli bu aləmin özü bir nağıl.

Göydən yerə enən mələksən özün,
Ürəyin genişdir, güzgü tək təmiz.
Qapqara moruqdur elə bil gözün,
Mənimçün olmusan əzizdən əziz.

Mərhəmət sahibi, ey gözəl xanım!
Yaxşı ki, gəlmisən bu dünyaya sən!
Səninlə bağlıdır ən gözəl anım,
Sağlam ömür sürüb, xoş gün görəsən.

Bax bu gün sənindir, sənin günündür,
Səninlə bir olsun könül sirdaşın
Dünyaya gəlişin toydur, düyündür,
Uğurlar gətirsin sənə bu yaşın!

## Payız

İlin dörd fəsli var, dördü də özəl,
Başqa bir aləmdir payızın özü.
Həm də bir - birindən olduqca gözəl,
Onun gözəlliyi oxşayır gözü.

İsti yay günləri yetişib sona,
Soyuq bir ruzigar indi hökm edir.
Hər tərəf bürünüb al-əlvan dona,
Ağacdan yarpaqlar tölülüb gedir.

Təbiət dəyişir öz libasını,
Buludlar bürüyür göyün üzünü.
Duyursan payızın sərt havasını,
Süzülən damcılar deyir sözünü.

Hər yerdən duyulur payız nəfəsi,
Təbiət bürünür dumana, çənə.
Aləmə yayılır yağışın səsi,
Elə bil bir nəğmə söyləyir sənə.

Damcılar aramla göydən ələnir,
Tökülən yarpaqlar olurlar xəzan.
Hər tərəf nur kimi suya bələnir,
Payızın dadını duyursan hər an.

## Qənirsiz gözəl

*(Qənirə xanım Paşayevaya)*

El - oba onunçün yanır, alışır,
Üzü tək gözəldir onun ürəyi.
Qənirsiz gözəldən hamı danışır,
Xalqının həmişə oldu dirəyi.

Tovuzda dünyaya açdı gözünü,
O, əsil xanımdır, əsil anadır.
Qayğıkeş ana tək dedi sözünü,
Dünya bir yanadır, o, bir yanadır.

Dada bilməsə də övlad dadını,
Hər kəsə uzatdı kömək əlini.
Ancaq qazanmışdı ana adını,
Qılınc tək işlətdi hər an dilini.

Ağlıynan susdurdu düşməni hər an,
Əbədi yumsa da indi gözünü.
Onunla fəxr edir bu Azərbaycan!
İşiylə sevdirdi xalqa özünü.

Hər kəsin qəlbində qurubdu yuva,
Xalqına həsr etdi bütün ömrünü.
Onunçün ağlayır bütün el – oba,
Tarixə vurmuşdu o, öz möhrünü.

## Nurayım

Günəşim, ayım mənim!
Xoş gəlmisən cahana.
Ən gözəl payım mənim!
Nur salırsan hər yana.

Mələklər mələyisən.
Rəngini qardan aldın.
Nənənin ürəyisən,
Hər yana sən səs saldın.

Nə yaxşı ki, varımsan!
Gözəl gözlü Nurayım!
Şirin, dadlı barımsan.
Gülər üzlü Nurayım!

Yay kimidir bax qaşın,
Sevindir hər an məni.
Tamamdır on üç yaşın,
Təbrik edirəm səni!

## Gücüm çatmayır

Kədərim yandırıb məni yaxanda,
Əlacsız-əlacsız durub baxanda,
Göz yaşım şel kimi gözdən axanda,
Gördüm ki, əcələ gücüm çatmayır.

Hamımız xəyala, fikrə dalmışıq,
Əcəlin əlində aciz qalmışıq,
Artıq Əzrayıldan fərman almışıq,
Gördüm ki, əcələ gücüm çatmayır.

Bir insan ömrünü vururdu başa,
Arzular ürəkdə dönürdü daşa,
Belə bir dərd ilə indi gəl yaşa,
Gördüm ki, əcələ gücüm çatmayır.

Əzrayıl möhrünü artıq vurmuşdu.
Cəllad tək otaqda gəlib durmuşdu.
Bütün bu qurğunu özü qurmuşdu.
Gördüm ki, əcələ gücüm çatmayır.

## Yadına düşürmü

Könlündən kecirmi heç məni görmək?
Gündüzlər gəzirsən düzü, dünyanı.
Çiçəklərdən mənə bir çələng hörmək,
Yadına düşürmü, bəs yarım hanı?

Cavab ver, gəzmə sən boşu-boşuna,
İstərdim güvənəm etibarına.
Yoxluğum gəlirmi sənin xoşuna?
Vəfalı olmusan hər vaxt yarına.

De görüm, bax indi qoca qarına,
Darıxdım, söyləmək gəlir arına?
Ay kişi, baxma sən mənim yaşıma.
Hava - zad gəlməyib qorxma başıma.

Ayrılıq çətindir, amandır aman.
Olsaydı əlimdə əlacım bu an.
Mən özüm səninçün darıxdım yaman,
Quş olub yanına uçardım inan.

## Haqsızlıq hara gedir

Haqsızlıq baş alıb, gör gedir hara?
Qəlblərdə bu açır böyük bir yara.
Heç nəyin qalmayıb duzu, nə dadı.
Bilmirəm, bunların bəs nədir adı?

Yaza bilməyənlər çəkilir başa.
Sabirə tay olub deyirlər bu an.
Elzanın qələmi dönəydi daşa,
Dağılsın bu dünya, dağılsın cahan.

Elzanı Sabirlə qoysaq yanaşı,
Allah başımıza tökəcək daşı.
Səhv salıb deyəsən Elza ünvanı.
Bəstəkar olaraq sən onu tanı.

Xoruzu səbətdə qoydu başına,
Başında gəzdirdi meyvə tabağı.
Baxmadı meyvənin quru, yaşına,
Deyirlər o, görür çox- çox qabağı.

Onu anlamağa baş olsun gərək
Onda tez gəlibdi Elza dünyaya.
Bir əsir lazım ki, biz bunu görək,
Günləri calasaq illərə, aya.

Nə qədər çalışsaq, çəksək də cəfa,
Bu nədir, haqsızlıq bax hara gedir?
Ömrümüz bizlərə eyləməz vəfa ,
Kim necə istəsə elə də edir...

## Dumanda, çəndə

Çiskinli havada, dumanda, çəndə.
Dağların başını alıb duman, çən.
Xəyallar içində dolandım mən də,
Maraqla seyr etdim hər tərəfi mən.

Bu qatı dumanda görmür göz – gözü,
Getdikcə hər yeri bürüdü duman.
Sanki sehirlənib təbiət özü,
Başqa bir aləmə düşmüşdüm inan.

Təbiət çox sirli göründü mənə,
Elə bil yox oldum, çənə qarışdım.
Dumanın içində itmişdim yenə,
Artıq bu halımla özüm barışdım.

Heç ata bilmədim qabağa addım,
Aradan keçmişdi azca bir zaman.
Əlacsız baxırdım mən maddım – maddım,
Getdikcə çəkildi ətrafdan duman.

Olduğu yerləri tamam tərk etdi,
Dumanda ilişib qalmışdı gözüm.
Gəldiyi kimi də yox olub getdi,
Sanki bir möcüzə seyr etdim özüm.

## Hörmətlə anırıq

Ömürlük köçdünüz xatirələrə.
Tovuzun qəhrəman, mərd şəhidləri!
Adınız yayıldı bütün yerlərə,
Əbədi yaşardı bu igidləri.

Polad tək gəlmişdi dünyaya Polad,
Ömrünün ən gözəl, cavan yaşında.
Hamıya doğmadır, tanışdır bu ad,
Dayanıb, durmuşdu ordu başında.

Düşmən hücum etdi orduya birdən,
Hörmətlə anırıq şəhidi hər an.
Onlar şəhid oldu hamsı qəfildən,
Onları unutmaq olmaz heç zaman!

Şəhidlər yenidən bir tarix yazdı,
Hər biri bir igid, bir qəhrəmandı.
Düşmənə çox dərin bir quyu qazdı.
Ömürlük yadlarda qalan canlardı.

## Şərəfli peşədir

Polisdir, insanın arxa, dayağı,
Sülhün keşiyində dururlar hər an.
Rahatlıq bilməyir heç vaxt ayağı,
Fəxrlə yanaşır onlara insan.

Olmayır polisin gecə-gündüzü,
Hamıya uzadır yardım əlini.
İşi çox olsa da hey gülür üzü,
Ürəklə qoruyur onlar elini.

Şərəfli peşədir polis peşəsi,
Var olsun, yaşasın polislərimiz!
Yüz beş il olubdu yayılır səsi,
Təbrik eyləyirik hər birini biz!

# Təbrik edirəm özümü

Yaxşı ki, dünyaya gəlmişəm özüm,
Təbrik eyləyirəm özüm-özümü.
Sevincdən parlayır indi də gözüm!
Yaradan güldürsün hər an üzümü.

Bəzən bulaq kimi çağlayıram mən,
Baxın, nə bir şaham, nə də ki, vəzir.
Bəzən əsəbimdən ağlayıram mən,
Bu şair xəyalım göylərdə gəzir.

Evimdə xanımam, həm də ki, nökər,
Alına yazılan bir yazı da var.
Ancaq bu qocalıq zəhləmi tökər,
İnsan pillə - pillə hər an qocalar.

Yaşımın üstünə yenə gəldi yaş,
Dadmışam həyatda nəvə dadını.
Saçımda həna var, ağarıbdı baş,
Sevərək almışam nənə adını.

Dünyanın bax budur dadı, mənası.
İstərəm qoy olsun əmin – amanlıq.
Yaxşı ki, dünyaya gəlib Rənası!
Yaşasın dünyada bir də insanlıq!

## Nə görür gözüm

Təlatüm düşübdü mənim canıma,
Titrəyir bədənim, nə görür gözüm.
Bir qorxu hopmuşdu sanki qanıma,
Anlaya bilmədim nə olub özüm?

Mənzərə ox kimi qəlbimi dəldi,
Təccüblə izlədim hər şeyi mən də.
Gözümün önünə Xocalı gəldi,
Düşündüm erməni dolubdu kəndə.

Silahlı düşmənlər haray salıbdı,
Günahsız qadınlar hey söyülürdü.
Qoca qadınları əsir alıbdı,
Həm də ki, şiddətlə bərk döyülürdü.

Polisin baxasan sən bir özünə,
Analar bu gündə hara gedirmiş?
Qaz vurdun qadının birdən gözünə,
Sən demə haqqını tələb edirmiş.

Sənin də anan var, bacın var, polis.
Şəhid anasına sən əl qaldırdın.
Haqqı tələb edən, niyə olur pis?
Özünü tarixə belə saldırdın.

# Gəl barış

Tez-tez inciyirsən məndən, əzizim,
Küsərək yenə də tərk etdin məni.
Titrəyir ürəyim, hey əsir dizim,
Bilmirəm, heç harda axtarım səni?

Qəlbində qopmuşdu qasırğa, tufan,
O zaman batdım mən qüssəyə, qəmə.
Sanki yox olmuşdun elə həmin an,
Yoxluğun öldürür məni sən demə.

Gözlərim dikilib getdiyin yola,
Boylanıb baxıram sağa, gah sola.
Heç yerdə görməyir gözlərim səni.
Naümüd buraxdın ortada məni.

Küsəyən sevgilim, keç günahımdan.
Mən səni gəzirəm, bil qarış-qarış.
Qurtara bilməzsən yoxsa ahımdan,
Nə olar küsəndə, indi  gəl barış.

## Şamla kibritin söhbəti

Şamların qorxusu kibritdən olar,
Şam ona söyləyib deyir ki, bax mən.
Kibriti görən tək gözləri dolar,
Qorxuram gözümə görünəndə sən.

Əvvəlcə toplayır kibrit özünü,
Bu sözü həmişə deyib durursan.
Titrəyən bu şama deyir sözünü,
Məni görən kimi eyham vurursan.

Bir ipi qucaqla, qoynuna al sən,
Günahkar o deyil, suçlu oldum mən.
Nə üçün günahkar görürsən məni?
Qəlbində olan ip, əridir səni.

## Əlçatmaz sanma özünü

Əlçatmaz bir insan sanma özünü,
Deyəndə fikirləş, söylə sözünü.
Qar yağar dağların torpaq, daşına,
Ən yüksək zirvənin düşər başına.

Düşünüb desə də əl çatmazam mən.
Günəşli bir gündə görəcəksən sən.
Bu qarlar əriyib dönübdür suya,
Özünü əl çatmaz sanırdı guya.

Hər şeyin düzünü qar bilə- bilə,
Dağın zirvəsindən tökülür lilə.
Heç kimin qəlbini qırma heç bir an,
Sənin işin düşər ona bir zaman.

Geriyə dönməyə qoy olsun üzün,
Tarixdə mərd kimi görünsün izin.
Həmişə həyatda qədimdən bəri.
Qəlb qıran insanın olmayıb yeri.

## Həyatla ölüm

İnsana bəxş olur gözəl bir həyat,
Görün siz dünyanın kef-damağını.
Yaşa özün üçün ye, iç, dolan, yat,
Firavan keçirin ömür çağını.

Hər kəsə yazılmır xoşbəxt bir qədər,
Həyat çox dadlıdır, həm də ki, acı.
Kimini bürüyür dərd, azar, kədər,
Yaşamaq insanın olur amacı.

Elə ki, yetirir ölüm özünü,
Ölməyi sevməyir heç zaman insan.
Sonunda insana deyir sözünü,
İnsanla bir gəzir ölüm anbaan.

Sonunda insanın alır canını,
Həyat çox gözəldir, şirin yalandır.
Əbədi məhv edir hər bir anını,
Ölüm də həyatdan insan alandır.

Acı həqiqətdi ölüm həyatda,
Həmişə dadırıq biz bu dadları.
Canları alan tək qalacaq yadda,
Alına yazılıb həm də adları.

## Üç nədən var

Gəlimli-gedimli bir dünyamız var,
Üç nədən bilirəm, yoxdur əlacı.
Hər şeyin həyatda çarəsi olar,
Həqiqət olsa da bunlar çox açı.

Birinci nədənin ölümdür adı,
Fikirə dalıram, deyirəm hərdən.
Çarəsi olmayır, zəhərdir dadı,
Ürək soyuması ikinci nədən!

Əgər qırılarsa, soyusa ürək,
İnsanın insana bir güvəni var.
Çarəsi yoxdur ki, məhv olub demək,
Üçüncü nədən də elə bu olar.

İnsanı bağlayan güvən, inamdı,
Bunların əlacı olmur heç zaman.
Güvəni qırmayın heç vaxt amandı,
Yaradan qorusun hamını hər an.

## Şəhidi tanı

Qəbələ batıbdır kədərə, qəmə,
Şəhidi varıymış bu gün sən demə.
Məhəmməd, bu yaşda şəhid olubdu,
Qönçə tək açmadan artıq solubdu.

Alnına yazılıb onun qədəri,
Suallar dolanır bütün hər başda.
Dünyayla bir olub indi kədəri,
Məhəmməd olarmı şəhid bu yaşda?

Nə idi igidin axı günahı?
Şəhiddir deyirlər, indi də adı.
Düşməni tutacaq xalqımın ahı,
Göylərə ucalır ana fəryadı.

Qoy ruhu şad olsun, cənnət məkanı,
Bir daha görməyək belə bir acı.
Ay ellər, obalar şəhidi tanı,
Şəhidlər olublar bizə baş tacı.

## Heydərov Qadir
*(şəhid)*

Göz açdın dünyaya sən ilk baharda,
Evindən kəsilib səsin - səmirin.
Bəs indi hardasan, ay oğlum harda?
Dünyayla bir olub isti hənirin.

Elə bir məqama yüksəldin ki, sən,
Vətənin yolunda tökdün qanını.
Səninlə fəxr edir bu ana vətən!
Sən şəhid eylədin şirin canını.

Dünyanı eylədin atana qəfəs,
Qadir deyiləndə yaş tökür gözü.
O, sənin sayəndə alırdı nəfəs,
Quruyur kəlməsi, yox olur sözü.

Nişanlı balası gedib əlindən,
İyirmi dörd olacaq, bax bu gün yaşın.
Bircə an düşməyir adın dilindən,
Güllərlə bəzənib məzarın, daşın.

Qar kimi ağarıb atanın başı,
Hönkürüb hər yerə salır hay- haray.
Sənin əvəzinə o, öpür daşı,
Səninçün qurubdu sahibsiz saray.

Əzizdir bizlərə bu məzar daşın,
Tarixi yenidən yazıbsınız siz.
Sahibsiz sarayda keçirir yaşın,
Ruhunun önündə baş əyirik biz!

## Kimsən axı

Mən yanıram, alışıram,
Anlamıram bu zamanı.
Qəm, kədərə qarışıram,
Günahsızın axır qanı.

Qadınını döyən kişi!
Öz evinə yığ gözünü.
Kəlmə başı söyən kişi!
Nə sanırsan sən özünü?

Cəlladdırmı sənin adın?
Kefin gəlsə güldürəsən.
Səndən ötrü nədir qadın?
İstəyəndə öldürəsən.

Bir əvvəlcə düşün barı,
Kimdən aldın ixtiyarı?
Xoşun gəlmir, boşa getsin,
Həyatına davam etsin.

Kimsən axı qan tökürsən?
Düşünürəm mən də bu an.
Bir ömürü sən sökürsən,
Beləsində yoxdu vicdan!

## Eyləmə minnət

Bir günün bir ilə dönübdü, bacım,
Qırx gündür yollara dikilir gözüm.
Deyirsən başımdan düşübdü tacım,
Bilmirəm, bu dərdə mən necə dözüm?

Geyibsən əyninə sən qara donu,
Gözündən sinənə tökülür yaşın.
Hər yerdə gözlərin axtarır onu,
Ağappaq qar kimi olubdu başın.

Yalvarıb deyirəm mən dönə-dönə,
Özünü sən daha qoyma bilməzə.
Ağlama can bacım, qurbanam sənə,
Yoldaşın gedibdi gedər - gəlməzə.

Vurubdu ömrünü artıq o, başa,
Eyləmə sən ona bir daha minnət.
Dönübdü mərmərdən bir qara daşa,
Həmişə məkanı olacaq cənnət.

## Səni yüz yaşa

Sən ömür bağımda bitən çiçəksən!
Ən şirin arzumsan, sən diləyimsən.
Mənimçün hamıdan gözəl - göyçəksən,
Allahım göndərən bir mələyimsən.

Dünyaya baxıram sənin gözünlə,
Məskənin olubdu mənim ürəyim.
Mən sirdaş olmuşam hər an özünlə,
Sənə ünvanlanıb arzu, diləyim.

Qoy hamı eşitsin, bilməyən bilsin,
Gözəlsən, gözəlim bax hər yaşında.
O, gözəl gözlərin həmişə gülsün,
Həmişə olasan sən iş başında.

Xoşbəxtlik həmişə səninlə olsun,
Yarınla birlikdə vur ömrü başa.
Ən şirin sevinclər evinə dolsun,
Mənim gözəl qızım, səni yüz yaşa.

## Olarmı belə dərd
*(şəhid)*

Qulaqdan getməyib toyunun səsi,
Olarmı belə dərd, belə bir azar?
Ölümü yandırır indi hər kəsi,
Elşada rəvamı qazıla məzar?

Kor olsun düşməni, çıxaydı gözü,
Gəlinin nə idi axı günahı?
Öləydi Elşadı vuranda özü,
Yandırsın düşməni o, qızın ahı.

Yarımçıq bir həyat, dul qalmış gəlin,
Dönsə də bu dünya bax gülüstana.
Ürəyı od tutur obanın, elin,
Oğluyla birlikdə öldü bir ana.

Elşad biləmmədi övlad dadını
Ölümü hamını lərzəyə saldı.
Qanıyla tarixə yazdı adını.
Bu igid şəhidlik adını aldı.

## Cavanlıq əbədi deyil

Cavanlıq əbədi deyil heç zaman,
Fikirləş həmişə, düşün bax bir az.
Günbəgün qocalır bütün hər insan,
Cavanam deməklə cavanlıq olmaz.

Hamıya yazılıb belə bir qədər,
Birlikdə dolurlar saf ürəyinə.
Sevinclə qardaşdır qəm ilə kədər,
Qocalıq minəcək düz kürəyinə.

Yaşının üstünə gələcək yaşın,
Nə qədər başıma mən qoysam həna.
Başına dən düşüb, ağarar bası,
Görərsən qocalır sizin bu Rəna.

Baxıram dünyaya indi bir anlıq,
Nə qədər ürəyin olsa da cavan.
Heç kimə qalmayıb vallah cavanlıq,
Qocalıq yerini alır anbaan.

## Yağış yağır

Hər tərəf bürünüb dumana, çənə,
Sanki göz yaşıdır, göydən ələnir.
Buludlar ağlayır hüzünlə yenə,
Bütün bu yer üzü suya bələnir.

Bəzən göydən gəlir gurultu səsi,
Bəzən də görürsən ildırım çaxır.
Bu səs də qorxuya salır hər kəsi,
İnsanlar təlaşla səmaya baxır.

Hərdən işıqlanır göyün də üzü,
Birdən də böyüyür yağış giləsi.
Qorxuya salır bu hamını düzü,
Onların hərəsi bir nur dənəsi.

Başlayır sürətlə yağış yağmağa,
Bu zaman göstərir bahar özünü.
Buludlar içindən günəş doğmağa,
Nurlar ələməklə deyir sözünü.

## Zəmanə tərsinə işləyir

Qışın ortasında heç yağmadı qar,
İndi də gəlibdi yamyaşıl bahar.
Baharın bu güllü, çiçək çağında.
Hər kəsin çiçəkli, gözəl bağında.

Qarı görən kimi hamı sevindi,
Zəmanə tərsinə işləyir indi.
Çiçəyin üstünə nurlar ələndi.
Hər tərəf ağappaq qara bələndi.

İndi qar yağmağın ləzzəti yoxdu,
Meyvəsiz keçəcək bu il yayımız.
Xeyrindən ziyanı qat-qat da çoxdu,
Soyuqdan donacaq bizim payımız.

Hər fəsil vaxtında desə sözünü,
Lalələr, nərgizlər qoy çıxsın düzə.
Meyvənin görərik biz də özünü,
Baharın xoş ətri yayılsın üzə.

## Sənin həsrətin

Kaş ala biləydin qəlbimdən qəmi,
Mən yumub, açaydım bir an gözümü.
Siləydin gözümdə yaşaran nəmi.
Görəydim səninlə birgə özümü.

Yandırdı atəşin, döndüm kül oldum,
Həsrətin sinəmə vurubdu yara.
Susuz bir gül kimi vədəsiz soldum,
Dərdindən olmuşam mən bir avara.

Bax, sənsiz gəzirəm çölü, çəməni,
Barışa bilmirəm belə qədərlə.
Həsrətlə gözlərim axtarır səni,
Dolanıb gedirəm qəmlə, kədərlə.

Sənsizlik çətindir, çətindən çətin.
Nisgilli ürəyim deyildir mətin.
Eşqin ürəyimə möhür vurubdu.
Həsrətin qəlbimdə yuva qurubdu.

## Nə eylədim

Bu gen dünyam dardı mənə,
Verdin dərdi büküm-büküm.
Nə eylədim axı sənə?
Ağır oldu mənim yüküm.

Üzülübdü daha canım,
Eyy yaradan, deyim yenə.
Damarımda donub qanım,
Nə eylədim axı sənə?

Mənə yazdın dərdi - qəmi,
Əl çəkmədin dönə-dönə.
Yüküm olub sanki gəmi,
Nə eylədim axı sənə?

Bürüyübdü məni duman,
Dərd-azarı verdin mənə.
Bəd xəbərdən yoxdu aman,
Nə eylədim axı sənə?

## Bir-bir gedir əzizlərim

Sürüm-sürüm sürünmüşəm,
Çoxalıbdı dərd-azarım.
Ağ kəfənə bürünmüşəm,
Bircə çatmır bax məzarım.

Dərd əlindən divanəyəm,
Könlüm yaman tarimardır.
Qəlbi ölmüş viranəyəm,
Bu gen dünya mənə dardır.

Qara bulud üstümdədir,
Nə istəyir məndən fələk?
Əzrayil lap qəsdimdədir,
Elə qurur qurğu- kələk.

Torpaq olub bir əjdaha,
Boş keçməyir bircə anı.
Gözü doymur onun daha,
Hər gün alır neçə canı.

Bir-bir gedir əzizlərim,
Gündə yaram hey verir qan.
Tir-tir əsir bu dizlərim,
Qalmayıbdı məndə heç can.

## Mənim həkimim

Ən gözəl kəlmədir həkimlik sözü,
Gözəldir işində olan peşəkar.
Yaraya məlhəmdir bu sözün özü,
Yaxşı ki, dünyada Səməd həkim var!

İşində ağardıb həkim başını,
Hipokrat andına sadiqdir həkim.
Atmayıb gəncliyin hələ daşını,
Səmədin işini görəmməz heç kim.

Həmişə xəstənin qeydinə qalır,
İşini ürəkdən sevəndi Səməd!
İşiylə hər kəsi o, razı salır,
Hər zaman elminə güvəndi Səməd!

Çox sevir Səmədi tanıyan, bilən,
Gözəldir həkimin bütün işləri.
Uğur diləyirəm həkimimə mən!
Etubar eləyin ona dişləri!

## Əlləri qızıldır

Dərdlərin dərmanı həkimdir, həkim,
Həkimin olmayır gecə - gündüzü.
Onların yerini verəmməz heç kim,
Çox yorğun görünür həmişə üzü.

Əlləri qızıldır həkim Rəşidin,
Gözəldir, inci tək əkdiyi dişi.
Mən deyim, hamınız bilin, eşidin,
Zərifdir, incədir gördüyü işi.

Gözəllik bəxş edir Rəşid üzlərə,
Sevinci ötürür gülən gözlərə.
Sədası yayılıb bütün düzlərə,
Layiqdir ən gözəl, ən xoş sözlərə.

Hər zaman işləri olsun uğurlu,
Ona təşəkkürüm olduqca çoxdur.
Üz-gözü sevincli, gözləri nurlu,
Mənim həkimimdən heç yerdə yoxdur!

## Tərk etdi Aslanım

Göydən kədər yağır, bu gün qəm yağır,
Kədərdən geydiyim libas qaradır.
Verilən bu yüküm ağırdır, ağır,
Bilmirəm heç indi hara, haradır?

Bir anda qaraldı dünya gözümdə.
Fırtına qopmuşdu, tufan qopmuşdu.
Anlaya bilmədim nədir özüm də?
Yaralı qəlbimə kədər hopmuşdu.

Artıq yer-yerindən bərkdən oynadı,
Kədərdən didildi, dağıldı canım.
Bir anda bu dünya sanki qaynadı,
Bizləri tərk etdi müdrik Aslanım.

Dünyaya yenidən o, dönməyəcək.
Artıq könüllərdə yuva qurubdu.
Heç zaman qəlblərdə bax ölməyəcək,
Bu işin möhrünü özü vurubdu.

## Niyə saldın

Qırx yeddi il bax əl-ələ,
Dolandılar birgə belə.
Əsdi külək, qopdu tufan,
Ox yayından çıxdı bu an.

Fələk oxla nişan aldı,
Bu əlləri ayrı saldı.
Fələk sənin çıxsın gözün,
Nə eylədin, gör bir özün?

Bir mələyi yaraladın,
Ürəyini paraladın.
Aldın ondan yoldaşını,
Onun tökdün göz yaşını.

Ot göyərib, üzə qalxdı,
İlin, günün gözəl vaxdı.
Sən yarını ondan aldın,
Dar məzara niyə saldın?

## Unutmaz Hacı Şahini

Dünyaya özüylə nuru gətirdi,
Qartal tək zirvədə dayandı hər an.
Gözüylə xalqına onu ötürdü,
Onunla fəxr etdi nə qədər insan.

Şahin sevənlərin heç yoxdu sayı,
Ağzından həmişə dürr tökülürdü.
Olmadı dünyada özünün tayı,
Qəlbindən inci tək söz sökülürdü.

Xoşuydu avazı, xoşuydu səsi,
Ömrünün ən gözəl, dadlı çağında.
Heyran eyləyirdi eşidən kəsi,
Yer aldı özünə cənnət bağında.

Məkanı cənnətdir, qazandı özü.
Hamıya sevdirdi imanı, dini.
Dillərdə dolanır söhbəti, sözü,
Unutmaz xalqımız Hacı Şahini!

## Təbrik eyləyirəm

Qadınlar mələkdir, incə çiçəkdir?
Yaradan qorusun bu qadınları.
Həmişə bizlərə onlar gərəkdir,
Bəxtəfər eyləsin hər an onları.

Hər biri xanımdır, gözəl anadır!
Nəfəsi isidir evi-eşiyi.
Yaradan hamsını gözəl yaradır,
Laylası titrədir evdə beşiyi.

Gündüzlər günəşdir, gecələr aydır!
Onları qoruyaq, qeydinə qalaq.
Allahım göndərən ən şirin paydır,
Həmişə qadının könlünü alaq.

Eşq olsun, bax bizim bu qadınlara!
Təbrik eyləyirəm, qadınlar sizi!
Bütün xoş arzular getsin onlara,
Şənləndirin hər an öz evinizi!

## Şəhidim var

Şəhidin var, Azərbaycan!
Yer titrədi, tufan qopdu.
Qan ağlayır millət bu an,
Xəbər sanki cana hopdu.

Çox ağırdır bax bu kəlmə,
Dərd- azardır həmin bu söz.
Vətənimə şəhid gəlmə,
Bu söz dönüb olur bir köz.

Köz yapışır ürəyimə,
Çünki mənim şəhidim var.
Heç nə gəlmir köməyimə,
Bütün çismim kömür olar.

Qoy el- aləm hamı bilsin,
Qoru Allah balaları!
İstəmirəm şəhid gəlsin!
Yaralama anaları.

## Xocalı abadlaşacaq

Xocalı bir dərddir ürəyimizdə,
Xocalı  tarixə yazdı adını.
Ən dərin yaradır kürəyimizdə,
O, daddı dəhşətin öncə dadını.

Soyqırım baş verdi həmin o gecə,
Alovlar içində yandı Xocalı.
Zülümlə öldülər insanlar necə?
Təpədən dırnağa qandı Xocalı.

Ah-nalə səsləri torpağa hopdu.
Bulağa dönübdü axan göz yaşı.
O gecə orada müsibət qopdu,
Qanla yuyulubdu torpağı, daşı.

O qanı qan ilə yudu ordumuz!
Xocalı bizimdir, bizim də oldu!
Düşməndən alındı qanlı yurdumuz,
Xoş abu-havayla o yerlər doldu.

Xocalı yenə də abadlaşacaq.
Artıq canlanıbdı, o, salır nəfəs.
Sədası dünyanı aşıb-daşacaq!
Əlindən gələni edəcək hər kəs.

## Mən nə gəzirəm

Dünyamız eylədi canla bazarlıq,
Heç kimin gəlməzdi bunlar ağlına.
Bir gündə salındı bax bu məzarlıq,
Onlar dönəcəklər ilin nağlına.

Qorxulu filimə bənzədi gecə,
Gördüyüm elə bil sanki röyadı.
Təbiət rejissor olmuşdu necə?
Əsərin müəllifi qoca dünyadı.

Kimiyə qorxulu bir gecə yazdı,
Körpələr qaldılar ana, atasız.
Kimiyə kəfənsiz bir məzar qazdı,
Bu dərdlər içində necə yatasız?

Bir gündə nə qədər canları aldı,
Dərdlərin içində tam bir əsirəm.
Minlərlə insanı çöllərə saldı.
Yalançı dünyada mən nə gəzirəm?

## Rəşiddən soruş

*(zarafatyana)*

Üz tutdum Səməd sənə,
Gəlmişəm mən bu yaşa.
Bircə sözüm var yenə,
Düz deyirəm bir başa.

Döyən olmayıb məni,
Bir soruş sən Rəşiddən.
Varsa çağır görəni.
Gör nə istəyir məndən?

Peşmanam gələm ora,
Kəlbətini tez alır.
Bir söz deyəm doktora,
Çəkib dişimi salır.

Kəsib, qoğrayır əti,
Qayçıyla kəsib, tökür.
Bir də getmərəm qəti,
Elə bil divar sökür.

Nə olubdu, ay kişi?
Özünə tapıb peşə.
Bunun budurmu işi,
Guya ki, gedir işə.

Deyir: dinmə, danışma,
Mənim işim iş deyil?
Kəlbətindən yapışma.
Bəlkə dişim diş deyil?

Mənə deyir ağlama,
Söylə görüm nə edim?
Nə ağzını bağlama,
Bəlkə şəhərdən gedim?

Sən fikir ver özünə,
Bax hirsləndirsən əgər.
Heç görünmə gözünə,
Bütün dişini çəkər.

## Nə istədin, dünya bizdən

Azərbaycan ağlayır qan,
Yer yarıldı, od ələndi.
Minlərlə türk veribdi can,
Dərd, bəlaya türk bələndi.

Dünya gəldi bizə kələk,
Daş üstündə qoymadı daş.
Buna dözməz heç bir ürək,
Qana döndü gözdəki yaş.

Müsibətdi, gəldi başa.
Nə istədin, dünya bizdən?
Bundan sonra sən gəl yaşa,
Ömür aldın əlimizdən.

Libasları qəmdən biçdin,
Dünya, bizi sən qandırdın.
Dərd verməyə türkü seçdin,
Od-alovda lap yandırdın.

Şirin günlər oldu zəhər,
Əzablardan büzülmüşük.
Boğur bizi indi qəhər,
Dərd, kədərdən üzülmüşük.

## Türkiyə yellənir

Ağlıma gəlməyən, gəldi başıma,
Türkiyə yellənir, binalar əsir.
Fəlakət üz verdi Türk qardaşıma,
Soyuq qılınc kimi adamı kəsir.

Binalar qum kimi göydən ələnir,
Torpaq dalğalanır, sanki su axır.
Hər tərəf dumana, toza bələnir,
İnsanlar kənardan əlacsız baxır.

Hər bir şey olubdu yer ilə yeksan,
Heç nədən qalmayıb əsər-əlamət.
Dağıntı altında qaldı çox insan,
Elə bil qopubdu orda qiyamət.

Zəlzələ dünyaya səs-səda saldı,
Allahım, Türkiyə yellənir hələ.
Minlərlə insanın canını aldı,
Müsibət görmədim ömrümdə belə.

# Ömür qısadır

Yanır ürəyimin incə telləri,
Bəlkə bu dərdimə tapalar əlac.
Haraya çağırın bütün elləri,
Qalmayıb dizimdə taqət, nə əlac.

Başlayıb nəsildə yarpaq tökümü,
Kimin qabağına qoyulsa fərman.
Əzrail veribdi bax bu hökümü,
Tərk edir dünyanı onda həmin an.

Çətindir itirmək doğmanı, yadı,
O zaman içirik ölüm şərbəti.
Ölümdür verilən fərmanın adı,
Sağ qalmaq söhbəti olmayır qəti.

Bu ölüm şərbəti zəhərdir - zəhər,
Yaşamaq gözəldir, ömürsə qısa.
Bilmədən içirik onu bir təhər,
Heç nəsib olmayır hamıya əsa.

Çünki cavan gedir insanın çoxu,
Heç zaman həyatdan doymayır insan.
Tuş gəlir onlara ölümün oxu,
Dadını çıxardın həyatın hər an.

## Harda qaldı dişlərim
*(Zarafatyana)*

Qurbanam doktor sənə,
İşdə ağarıb başın.
Yardım eylə sən mənə,
Rəşid bəy iş yoldaşın.

Dişlərimi alıbdı.
Dedi: verrəm təzə diş.
Gör nə günə salıbdı!
Başıma o, açdı iş.

Harda qaldı dişlərim?
Deyim sənə müxtəsər,
Pozulubdu işlərim,
Dişimdən yoxdur xəbər.

Qurtarıb daha sözüm.
Rəşiddən bir soruş sən.
Deməyə gəlmir üzüm,
Çoxmu gözləyəcəm mən?

Səməd, deyim sən də bil,
Versin köhnə dişimi.
Təzəsi lazım deyil,
Mən də bilim işimi.

## Sirlidir dünya

Dünya vəfasızdır, yox etibarı,
Ölməyi gətirmir kimsə ağlına.
Hamını aldadır dövləti-varı.
Düşürlər dünyanın sirli nağlına.

Bu dünya insanı alır qoynuna,
Kişidir, ya qadın bunları demir.
Sonra da fələyin salır oynuna,
Hərəyə yazılır bir cürə ömür.

Qoymayır ömrünü hec vursun başa,
Dünyamız gah dolur, gah da boşalır.
Görürsən dönübdür artıq o, daşa,
Əzrayil hərəni bir yolla alır.

Qoca var yeriyir lap əsə-əsə,
Belədir dünyanın əzəldən işi.
Bu dünya sirrini vermir heç kəsə,
Sirlərlə doludur onun keçmişi.

## Sən küsmüsən

Damarında axan qanam,
Ürəyində gəzən canam,
Məndə sənə vardı inam,
Niyə məndən sən küsmüsən?

Gül tək ətir qoxuyuram,
Sözdən çələng toxuyuram,
Sənə nəğmə oxuyuram,
Niyə məndən sən küsmüsən?

Əlindədir mənim əlim,
Şeir deyir sənə dilim,
Bir de görüm mən də bilim,
Niyə məndən sən küsmüsən?

Əmanətin qalıb məndə,
Gəzdirirəm bu sinəmdə,
Yorulubdu bax çənəm də,
Niyə məndən sən küsmüsən?

Ömrümə sən ömür qatdın,
Muradına mənlə çatdın,
Küsdün məni oda atdın,
Niyə məndən sən küsmüsən?

## Rusları tanı

Gör necə yazılır insana qədər.
Bəzən biz dadırıq sevinc dadını.
Yaradan bəxş edir sevinc və kədər,
Silmək istəyərdim kədər adını.

Kədərdən ömrümüz yarı bölünür,
İyirmi yanvardır, gəlibdir yenə.
Yolun bir ucunda ölüm görünür,
Zülümlər etdilər onda vətənə.

Rusların tankları girdi şəhərə.
Hər yerə töküldü şəhidin qanı.
Gülləni ələdi bütün yerlərə,
Məhv oldu yüzlərlə insanın canı.

Bu bəla gəlmişdi bizlərə qəfil,
Nə qədər insana məzar qazıldı.
O gündən yas gülü oldu qərənfil,
Tarixə yanvarın adı yazıldı.

Unuda bilmərik həmin o anı,
Kədərə büründük hamımız onda.
Millətim, düşməni -  rusları tanı,
Qələbə bizimdir, qalibik sonda.

## Cənnətdir yeri

Dünyaya bir dəfə gəlir hər insan.
Gəlişi bayrama çevrilir o an.
Teymurun gəlişi toy-bayram oldu.
Bu sevinc hamının qəlbinə doldu.

Yaradan vermişdi ağlı, savadı.
Fəxr etdi onunla həmişə, hər an.
İradə qəlbinə yazdı o, adı,
Bəxtinə düşmüşdü Teymurtək oğlan.

İşgüzar, zəhmətkeş həyat yoldaşı,
Canından çox sevdi övladlarını.
Hamıdan seçildi hər addım başı,
Sevərək qoymuşdu o, adlarını.

Birlikdə verdilər onlar əl-ələ,
Əcəl aramızdan Teymuru aldı.
Görməli işləri çoxuydu hələ,
Onu doğmalardan kənara saldı.

Teymurun məkanı cənnətdir, cənnət,
Bir daha bizlərə o, dönməz geri.
Yığılıb nə qədər eyləsək minnət,
Sağikən qazanıb cənnətdə yeri.

# Sən öldürmüsən

Dərdlərin məskanı oldu bu ürək,
Dərdləri ürəyə dolduran külək,
Məqsədin nə idi, de indi bilək,
Çünki bu ürəyi sən öldürmüsən!

Ürəyi öldürən qəmdi, kədərdi,
Bəxtimə yazılan bu bir qədərdi,
Çəkdiyim cəfalar hamsı hədərdi,
Çünki bu ürəyi sən öldürmüsən!

Günahı görürəm əsən küləkdə,
Dərddən tökülübdü gözdə bəbək də,
Kor olub gedirəm indi yedəkdə,
Çünki bu ürəyi sən öldürmüsən!

Külək kaş ürəyi dibindən sökə,
Bütün qəm, kədəri geriyə tökə,
Ürək tab gətirmir axı bu yükə,
Çünki bu ürəyi sən öldürmüsən!

# Qara bələnir

Göydən nurlar ələnir,
Uçuşur qar dənəsi.
Hər yan qara bələnir,
Parıldayır hərəsi.

Ulduz tək işıq saçır,
Sevinclər aşıb-daşır.
Üzlərdə çiçək açır,
Hər yerə qar yaraşır!

Ağaclar geyinir ağ,
Soyuqda buz bağlayar.
Topalanıb olur dağ,
İsti olsa ağlayar.

Əriyər gilə-gilə,
Üstündə ləpir qalar.
Dönər daşqın bir selə,
Ayaq altda səs salar.

Uşaqlar qarı sevər,
Vay halına yıxılsan.
Çox yağsa zərər verər,
Qırıq-qırıq olarsan.

Hər şeyin var qədəri,
Qədərində yağsa qar,
Çox olanda kədəri,
Hamıya da xoş olar.

## Dünya əbədidir

İnsanlar göz açıb, gəlir dünyaya,
Hərəyə bir cürə verilir ömür.
Baxmayır günlərə, nə ötən aya,
Günlər ya ağ olur, ya da ki, kömür.

Kiminin bəxtinə ağ gün yazılır,
Elə ki, insanlar gözünü açır.
Kimiyə diriykən qəbir qazılır,
Bir başa var-dövlət dalınca qaçır.

Heç nədən olmayır ancaq xəbəri,
Pul gəzmək xəstəlik, sanki azardı.
Həmişə pul gəzir onun gözləri,
Bilmirlər mənzilin sonu məzardı.

Pulun arxasınca qaçarkən insan,
Bir gün əzrayılda qurtarır səbir.
Əzrayıl kölgə tək izləyir hər an,
Çünki yolumuzu gözləyir qəbir.

İnsanın ömürü bax bu qədərdi,
Dünya əbədidir, biz gəldi-gedər.
Köçdüyü həmin gün qəmdi, kədərdi,
Nə etsə bizlərə nəfsimiz edər.

# Döyüş Alı

İllərdi gözlədik biz bu minvalı,
Hardadır görəsən babamız Alı,
Qılışdı nəslindən düşdü aralı,
Olmuşdu ürəyi, qəlbi yaralı.

Hamı bilirdi ki, qoçaqdır-qoçaq.
Xanın qəzəbinə gəlmişdi kişi.
Cavad xan zülmündən düşmüşdü qaçaq,
Kimsə edəmməzdi o, görən işi.

Gizlicə giribmiş zindana gecə,
Ağırlıq düşsə də düz ürəyinə,
Hamilə qadını qaçırdıb necə?!
Gəlini sarıyıb öz kürəyinə.

Bir top parça ilə zindandan alıb,
Ərinə veribdi orda gəlini.
Divarı aşaraq o üzə salıb,
O gecə tərk edib doğma elini.

Çünki bilirdi ki, tutsa Cavad xan,
Onu öldürdəcək elə həmin an.
Sonradan dünyaya o, səs salmışdı.
Döyüş Alı kimi bir ad almışdı.

## Birdir kökümüz

Nə gözəl yaradıb sizi yaradan,
Gözünüz yollarda hey ola-ola.
Keçsə də çoxluca illər aradan,
Ayları, illəri verdiniz yola.

Gecəni, gündüzə birgə qatdınız,
Axtardız bu işin hər an başını.
Sonunda məqsədə gəlib çatdınız,
Atdınız həsrətin, qəmin daşını.

Siz bizə əzizdən lap əzizsiniz,
Sizinlə fəxr etdik hər an özümüz.
Bizim ürəyimiz, qəlbimizsiniz!
Çünki birdir bizim ulu kökümüz.

Baxışlar istidi, qan eyni qandı,
Qələbə bizimdi, bizlər qazandıq!
Namərdlər bizləri ayırdı sandı,
Birləşib keçmişi birlikdə andıq.

Heç zaman olmasın ayrılıq, kədər,
Sevincli anları lap yaşıyırıq.
Bizlərə yazıldı belə bir qədər,
Qılışdı adını biz daşıyırıq!

## Unutmaq olarmı

Sən sual eylədin, mən cavab verim,
Geyibsən əyninə bir qara donu.
Sənin sualından doğuldu şeirim,
Deyirsən unutmaq olarmı onu?

Mənim sözlərimə doğurdan inan,
Hər yeri gəzibsən onun özüylə!
Unuda bilməzsən onu heç zaman,
Dünyaya baxıbsan gözəl gözüylə!

Onunla birlikdə almısan nəfəs,
Bunun da şahidi olubdu hər kəs.
Birlikdə dadmısan hər bir nübarı,
Unutmaq olarmı belə bir yarı?

Bütün çətinliyə gəribdi sinə,
Onunla gedibdi ağzının dadı.
Gül kimi övladlar bəxş edib sənə,
Qəlbinə yazıldı əbədi adı.

Hər bir kəs gözləyir yolunu hər an.
İndi gəl bacarsan qəlbindən çıxart.
Dünyaya gəlməyib heç belə insan!
Sökə bilirsənsə bir yolluq sök at!

# Ən gözəl hədiyyə

Dünyanın belədir biləsən işi,
Ağ atın belinə qoydum yəhəri.
Aləmi dolandım səninçün, kişi,
Hədiyyə almaqçün gəzdim şəhəri.

Çox yeri axtardım, gəzdim, dolandım,
Heç nəyi bilmədim mən sənə rəva.
Sonunda yüz faiz buna inandım,
Demə ki, nə edir bax bu binəva?

Düşündüm günlərdir özüm-özümə,
Neyləyim, ay kişi dedim ki, yenə.
Xoş bir şey dəymədi mənim gözümə,
Ən gözəl hədiyyə özüməm sənə!

## Hüzur istəyirəm

Hüzur istəyirəm mən yaradandan,
Hüzursuz olmasın dünyada insan.
Dayansın hər yerdə döyüşlər, dava.
Dəyişsin aləmdə bu abu-hava.

Açılsın səmamız, olsun tər-təmiz!
Mərmilər uçmasın qulaq dibində.
Qoy rahat yaşasın bütün cümləmiz,
Rahatca dolansın hamı evində.

Hüzur istəyirəm mən yaradandan,
Kədər, qəm yox olsun elə bu andan!
Yüksəlsin evlərdən qəh-qəhə səsi,
Azad nəfəs alsın bu yer kürəsi.

Şəhidlər verməyək, gülsün üzümüz,
Döyüşlər görməsin daha gözümüz.
Sad-xürrəm yaşayaq bizim özümüz,
Sülh olsun dillərdə əziz sözüzümüz.

## Kimə qalacaq

Anlaya bilmirəm dünya işini,
Dövlətlər sülhsevər qoyur adını.
Nə üçün öldürür kişi kişini?
Öldürür körpəni, həm də qadını.

Baxmayır qocaya, nə də cavana,
Əvvəl quş uçardı göyün üzündə.
Dünyanı batırır toza, dumana,
Mərmilər fırlanır indi düzündə.

Alova bürünür şəhərlər, kəndlər,
Tökülür dünyada günahsız qanlar.
Od alır meşələr, dağılır bəndlər,
Zülümlə məhv olur, alınır canlar.

Axı bir kimsəyə bu dünya qalmır,
Düşünür hər yeri tamam alacaq.
Ömürlük dünyada məskən də salmır,
Ancaq bilməyir ki, kimə qalacaq?

Bu dünya qalmadı şah Süleymana,
Qan örtüb onların tamam gözünü.
Yoxsa ki, qalacaq qəddar insana?
Canilər günahsız görür özünü.

## Qızlar köç edir

Körpələr göz açır, gəlir dünyaya,
Uşağın gəlişi toy, bayram olur.
Hədiyyə olunur onlar anaya.
Səs-küyü, sevinci evlərə dolur.

Körpələr boy atır sanki anbaan,
Baxırsan gəlibdi toyun zamanı.
Böyüyüb olurlar gözəl bir insan.
Sevinc göz yaşları boğur insanı.

Göylərə ucalır vağzalı səsi,
Sel olur gəlinin gözünün yaşı.
Bu səs də kövrəldir bütün hər kəsi,
Bağlayır belini igid qardaşı.

Sevinc yaşlarıdı axan bu yaşlar,
Ata ocağından qızlar köç edir.
Sevinir qohumlar, dostlar, qardaşlar,
Özünə ev-eşik qurmağa gedir.

Qoy xoşbəxt eyləsin qızı yaradan.
Hər evdən duyulur qızların ətri.
Mələk doğulurlar onlar anadan,
Həmişə əzizdir onların xətri.

## Darıxıram

Əsdi yellər, qopdu tufan,
Bir fırtına coşdu inan.
De hardasan, axı bu an?
Sənsiz yaman darıxıram!

Mən köz olub alışmışam,
Xəyallara qarışmışam,
Taleyimlə barışmışam,
Sənsiz bil ki, darıxıram!

Kaş bir ovuc qan olaydım,
Ürəyinə mən dolaydım,
İlahidən gələn paydım,
Sənsiz yaman darıxıram!

Sən üzünü bəri çöndər,
Ətəyindən daşı əndər,
Mənə bircə namə göndər!
Sənsiz yaman darıxıram!

Şimşək olub bax çaxaram,
Leysan olub hey axaram,
Bir gün səni mən yaxaram,
Çünki sənsiz darıxıram!

## Qəhrəman Nicat

*(şəhid)*

Dünyaya göz açdı payızda oğlan,
Alnında yazıldı onun qədəri.
Gəlişi bayrama döndü həmən an,
Ömrünə paylandı sevinc, kədəri.

Ananın ömrünün gözəl çağıydı,
Ümidlə baxırdı Nicat sabaha.
Nicatı eşqinin ilk nübarıydı,
Böyüyüb musiqi calırdı daha.

Silaha çevrildi çaldığı sazı,
Canıyla qorudu öz vətənini!
Dumana büründü baharı, yazı,
Ot kimi biçirdi o, ermənini.

Heç zaman düşmənə vermədi aman,
Sanki şir ürəyi yemişdi oğlan!
Tankıyla hədəfə gəldi qəfildən,
Nicatı tankında vurmuşdu düşmən.

Vətənin yolunda kül oldu, yandı,
Qaldı ürəyində arzu, muradı.
Pozmadı heç zaman içdiyi andı,
Qəhrəman şəhidə çevrildi adı.

## Söz yarası

Ay obalar, ay ellər!
Heç susmayır bu dillər.
Gecə gündüz oxuyur.
Sözdən çələng toxuyur.

Elə dil var şirindir!
Bəzisi qan, irindir.
Şirindən süzülür bal.
Danışdırıb ləzzət al.

Zəhərlidir acı dil.
Bibərdir o, elə bil.
Acı dillər ilandır!
Qəfil insan çalandır!

Söyləyir elə bir söz,
Gəl sən ona indi döz.
Ürəkdə açır yara.
Gününü edir qara.

Alsan xəncər yarası,
Tez sağalar xorası.
Bu da hələ harası?
Qurtarmır söz yarası.

## Ayrılıq

Xəyalım dolanır aranı, dağı.
Ürəyim dayanır az qala inan.
Gəzir çəmənləri, meyvəli bağı,
Canlanır gözümdə xəyalın hər an.

Fikirlər içində itib, batıram,
Sənsiz heç bir şeyin olmayır dadı.
Sanki son mənzilə gəlib çatıram,
Ayrılıq, hicrandı bunun da adı.

İndi tək gəzirəm, yaşıl çəməni,
Hər yerdə gözlərim axtarır səni.
Kaş yumub açaydım bir an gözümü.
Yanında görəydim bir an özümü.

Bir günüm bərabər olubdu ilə,
Göz yaşım dönübdü sinəmdə selə.
Gəl tutaq yenə də indi əl-ələ,
Qoyma ömrümüzü biz verək yelə.

Ömür çox qısadır, həyat da çətin,
Son qoy ayrılığa, son qoy əzizim.
Sənsiz olmayıram heç cürə mətin,
Hicranla keçməsin ömrümüz bizim!

## Gəlməyəcəyəm

Subaylıq yadına düşübdü yenə,
Gəl parkda görüşək deyirsən mənə,
Söz verdim özümə mən dönə-dönə,
Səninlə görüşə gəlməyəcəyəm!

Gözümü tikirəm dalana, tinə,
Bələdəm mən sənin öz qeyrətinə,
Hər zaman inandım məhəbbətinə,
Ancaq görüşünə gəlməyəcəyəm!

Çatmışıq biz artıq bir bəlli yaşa,
Gəl evdə oturaq indi baş-başa,
Deyirəm, ay kişi səni yüz yaşa,
Ancaq görüşünə gəlməyəcəyəm!

Sən nədən öyürsən axı özünü?
Sözün var, gəl evdə söylə sözünü.,
Gərək mən parkdamı görəm üzünü?
İncimə, görüşə gəlməyəcəyəm.

İstər inanma sən, istərsən inan,
Nəvələr verməyir, ay kişi imkan,
Mən də darıxıram səninçün yaman,
Nəvələr qoymayır, gəlməyəcəyəm.

Deyəsən cavanlıq düşüb yadına,
Qocalıq yazılıb artıq adına,
Çöldə görüşmək də yetməz dadına,
Evə gəl, gözləmə, gəlməyəcəyəm!

# Poladdan olaydı

Müsibət gəlibdi xalqın başına,
Erməni aləmi yenə qatıbdı.
Qurbanam vətənin torpaq, daşına,
Millətim tamamən yasa batıbdı.

Evlərdə qopubdu elə bil tufan.
Təbiət bizimlə ağlayır bu an.
Şəhidin xəbəri gəldiyi zaman.
Atalar dil deyib ağlayır inan.

Atanın, ananın durur nəfəsi.
Onların alışıb, yanır kürəyi.
Göylərə yüksəlir ağlaşma səsi,
Dözməyir, partlayır sonda ürəyi.

Evlərdən tabutlar çıxırlar qoşa,
Oğulla bərabər dönürlər daşa.
Bu dərdə dözməyə deyirəm gərək,
Ətdən yox poladdan olaydı ürək.

## Böyükdür acım

Yaşın əvəzinə gözdən gəlir qan,
Əl çəkmir yenə də mənfur erməni.
Nalələr göylərə ucalır bu an,
Atəşə tutubdu gecə vətəni.

Laçın, Kəlbəcərdə gecə qaranlıq,
Ulduz tək göylərdən mərmi ələndi.
İşığa qərq oldu dünya bir anlıq,
Hər yana işıqlı toz səpələndi.

Böyükdür, ay Allah bugünkü acım.
Lənətə gəlsin qoy həmin o anı.
Əlimdə olmadı bircə əlacım,
Nə qədər igidin töküldü qanı.

Silərdim düşməni dünya düzündən,
Allahım, kömək ol sən əsgərlərə!
Baş verdi bəlalar onun üzündən,
Erməni girməsin bizim yerlərə.

## Uşaqlıq illərim

Uşaqlıq illərim düşdü yadıma,
O gözəl günləri arxada qoydum.
Köhnə xatirələr çatdı dadıma,
Bəs həmin çağlardan mən necə doydum?

Ən gözəl illərdi həmin o illər,
Atam yetişərdi hər an dadıma.
Uşaq istədiyi hər şeyi dilər,
Nə olsa alardı mənim adıma.

Atalı, analı günlərim vardı,
Heç nədən xəbərsiz böyüyürdüm mən.
Qoşa qardaşlarım evdə olardı,
Elə bil olubdu bax bunlar dünən.

Uşaqlıq illərim çatıbdı başa,
İndiki yaşın var öz gözəlliyi.
Böyüyüb gəlmişəm bir bəlli yaşa,
Çoxdan adlamışam indi əlliyi.

Qayğısız illərim çıxdılar yoxa,
Heç biri qalmadı ancaq yanımda.
Onların qanları vardı qanımda,
Baxmadı nə vara, nə aza-çoxa.

## Tovuz quşu

Nə gözəl yaradıb səni yaradan?!
Allahım, rənglərin çalarına bax.
Rəngləri o necə alıb, haradan?
Hər lələk bir tacdır, üz, saçına tax.

Özünün başında hazırdı tacı,
Quşun gözəlliyi aləmi gəzər.
Rəngi xatırladır yaşıl yamacı,
Mavi olan yeri dənizə bənzər.

Bax, Tovuz quşudur bu quşun adı,
Nəzər muncuqları üstə ələnib.
Heç nəyə bənzəmir ləzzəti, dadı,
Bütün gözəlliyə sanki bələnib.

Elə bil bir rəssam bəzəyib onu,
Özünə məxsusdu onun duruşu.
Al-əlvan rənglərə boyanıb donu,
Gözəllik quşudur bu Tovuz quşu.

## Hardasan, əzizim

Hardasan əzizim, harda qalmısan?
Getdiyin yollara dikilib gözüm.
Sən məni kədərə, dərdə salmısan,
Sənsizlik çətindir, qalmayıb dözüm.

İstərəm quş kimi uçum yanına,
Sənin damarında coşub axaydım.
Dönəm bir məlhəmə, hopam qanına,
Dünyaya səninlə birgə baxaydım.

Kaş dönə biləydim xəfif bir yelə,
Qoruyardım səni qardan, borandan.
Mən sığal çəkərdim alnında telə,
Mən sənə vuruldum gördüyüm andan.

Sevgimiz günəş tək parlasın hər an,
Bizim bu məhəbbət düşsün dillərə.
Sevgisiz yaşaya bilməyir insan!
Dastan tək yayılsın bütün ellərə.

Tezliklə bitəydi bu qəm, bu kədər,
Yolunu gözləyim axı nə qədər?
Sən mənə dönməsən, əzizim əgər,
Dünyaya gəlişim olacaq hədər.

## Az qalıb

Həm ana, həm gözəl həyat yoldaşı!
Bilirəm, düşmüsən yanan atəşə.
Silginən gözündən tökülən yaşı,
Ümidlə baxgınan doğan günəşə.

Olduqca böyükdür çəkdiyin acın,
Nə qədər günləri verdiniz yelə.
Biləsən birgədir sənlə mən bacın,
Yaradan qoyarmı bu işi belə?

İndi gəl birlikdə tutaq əl-ələ,
Səbirlə sən tox tut indi özünü!
Sabahı gözləyək biz gülə-gülə,
Yar gələn yollara zillə gözünü.

Şükürlər olsun qoy, bu yaradana!
İndi sən çatıbsan, bacım hədəfə!
Az qalıb qovuşmaq olduğun ana,
Möhkəm tut əlindən onun bu dəfə.

Ürəklə söyləyib, deyirəm ki, mən,
Layiqsən hər cürə xoşbəxtliyə sən!
Bu gözəl Allahım, gözəl yaradan!
Bir daha sizləri ayırmaz inan!

## Dünyanın nədir mənası

Yolumu salmışdım qəbirsanlığa,
Daşlardan cürbəcür adam baxırdı.
Özümü itirdim lap bir anlığa,
Gözümdən sinəmə yaşlar axırdı.

Gözlərə çökmüşdü ağır bir kədər,
Varıydı hərənin öz bağça -bağı.
Onların dünyası olmuşdu hədər,
Əzrayıl olmuşdu onlara yağı.

Dönmüşdü insanlar qapqara daşa,
Elə bil şəhərdir, deyil məzarlıq.
Daşdan boylanırdı onlar bir başa,
Şəhərə düşmüşdüm, sanki bir anlıq.

Sakinlər kədərlə mənə baxırdı,
Həmin bu şəhərcik ölü məkandı.
Baxışlar yandırıb məni yaxırdı,
Vaxtilə o daşlar canlı insandı.

Elə bil dəhşətə gəlmişdim inan,
Düşündüm, dünyanın nədir mənası?
Dünənki insanlar yoxuydu bu an,
Bir gün də baxacaq daşdan Rənası.

## Uşaq bayramı

Nə gözəl bir gündür bu gün dünyada!
Sizlərsiz dünyanın nazı, neməti.
Sizlərə həsr olub uşaqlar o da!
Yaradan bəxş edib həmin qüdrəti.

Sizindir bu dünya, sizindir cahan!
Bu gün də sizsiniz, gələcək də siz.
Sizinlə gözəldir dünyamız hər an!
Uşaqla fəxr edir bizim cümləmiz.

Evlərin bəzəyi uşaqdır, uşaq!
Övladdan alırıq hər an ilhamı.
Nurlu gələcəyə birgə qovuşaq,
Bilir ki, xoşbəxtlik sizdədir hamı.

Mübarək olsun bu uşaq bayramı,
Sizinlə gözəldir bu həyat mənə.
Yaradan eşitsin mənim duamı,
Söyləyir bunları mən Rəna nənə.

## Görmədin həmin dağı

Mən bir lal qayayam, sən isə dəniz!
Dəniz tək coşubsan, gah ağlayıbsan,
Önündə olmuşam sanki bir kəniz,
Dərdinlə ömrümü sən dağlaybsan.

Arxanda dağ kimi mən dayanmışam.
Elə ki, dəniz tək ləpələnibsən.
Səninçün sahildə lövbər salmısam,
Köksümə damcı tək səpələnibsən.

Dərdlərin qəlbimdə yara bağlayıb,
Hər zaman qəlbimə dəyəndə ləpə.
Lal olan qaya da onda ağlayıb.
Dərdin ürəyimdə oldu bir təpə.

Həmişə tikəmi səninlə böldüm,
Nə gecə, nə də ki, bax gündüz çağı.
Dərdlərin içində inan ki, öldüm,
Heç zaman görmədin sən həmin dağı.

## Həyatın qanunu

Ömrümün yolları kələ - kötürdü,
Yolları bəxtimə çəkdi yaradan.
Enişdən- yoxuşdan məni ötürdü,
Bəxş etdi bəxtimi doğulan andan.

Bəzən o yollarda qaraldı gözüm,
Büründüm yollarda dumana, çənə.
Vüqarla gəlmişəm bu günə özüm,
Ayağım üstündə durmuşam yenə.

Bəzən şimşək kimi göylərdə çaxdım.
Səssizcə ağladım, qarışdım selə.
Bulud tək ağlayıb, yağış tək axdım,
Günlərlə keçirdim ömrümü belə.

Bəzən də sevincdən alışdım, yandım,
Yox idi sevincin həddi-hüdudu.
Dünyada özümü bəxtəfər sandım,
Həyatın qanunu bəlkə də budu.

Hər kəsə yazılır cürbəcür qədər,
Bu ömür yollarım çatacaq başa.
Bir gün bürüyəcək məni də kədər,
Günlərin birində dönəcəm daşa.

# Əziz qardaşım

Qurbanam dünyaya gəldiyin günə!
Ancaq mən neynəyim, sən yoxsan özün?
Həmin gün gəlibdi, bax bu gün yenə,
Əbədi yumulub o, qara gözün.

Silinib hər yerdən ayaq izlərin,
Bulaq tək çağlayan, əziz qardaşım!
Yaddaşa həkk olub bütün sözlərin,
Qardaş yox, atamsan, həm də sirdaşım!

Sənsiz bu ürəyim bağlayıb qübar,
Sağalmaz yaradır həmin bu yara.
Sinəmdə kök salan dərin yara var,
Mənimlə bir gedir, getsəm də hara.

Hər yerdə gözlərim axtarır səni,
Bu günü sevsək də dünyalar qədər.
Tərk etdin sən bütün səni sevəni,
Yoxluğun bəxş edib bizlərə kədər.

## Könlümün sultanı

Könlümün sultanı, bir dinlə məni,
Bilmirəm nədəndir gah sən coşursan.
Hər zaman gözləyir bu yarın səni,
Həvəslə hər şeyə nəğmə qoşursan.

Coşanda bulaq tək bərk çağlayırsan.
Bəzən də küsürsən, sən lal olursan,
Məcnun tək gizlicə gah ağlayırsan.
Xəyaldan xəyala, fikrə dolursan.

Leyliyəm, gəzirəm arxanca özüm,
Mən səni seçmişəm könlümə sultan.
Sən gələn yollara tikilir gözüm,
Ürəyim səninlə döyünür hər an.

Könlümüz yenə də qoy gəlsin cuşa,
Həmişə deyirəm mən dönə- dönə.
Hər yeri dolanaq birlikdə qoşa.
Səninlə gözəldir bu həyat mənə!

# Yalançı məhəbbət

*Poema*

Maraqla baxıram dumana, çənə,
Göylərdən buludlar boylanır mənə.
Bulud damcılayır lap aram-aram,
Sanki söyləyir ki, burda mən varam.
Səmadan torpağa yağış ələnir,
Hər tərəf palçığa, suya bələnir.
Buludun içində günəş yox olur,
Bulud gah kövrəlir, gah da ki, dolur.
Yağış pıçıldayır, söyləyir nəğmə,
Mənimçün oxuyur onlar sən demə.
Baxıram hər yana indi bir anlıq,
Getdikcə ətrafa çökür qaranlıq.
Şəhərdə gur yanır evlərin şamı,
İşdən çıxıb gedir evinə hamı.
Xəyallar uzağa aparır məni,
Hər şey xatırladır mənə Gülşəni.
Sanki o, rəngini qardan almışdı.
Yadlarda çox gözəl qız tək qalmışdı.
Hörmətli kişinin qızıydı Gülşən,
Mehriban qızıydı, həmişə də şən.
Uşaqlıq illəri düşdü yadıma,
Təriflər deyirdi hamı adına.
Yuxudan duranda tərslik edərdi,
Əlacsız bağcaya çıxıb gedərdi.
Hər zaman özünü bu qız öyərdi,
Hətta oğlanları tez- tez döyərdi.
Hər kəsdən küsərdi, ayrı gəzərdi,
Bəzən də əlindən hamı bezərdi.

Gəlmişdi dünyaya bir də qardaşı,
Gülşənlə gəzərdi hər addım başı.
Meylini salmışdı o, qardaşına,
Qardaşı çevrildi sirr yoldaşına.
Birgə gəzərdilər bütün hər yanı,
Cahana bağlıydı Gülşənin canı.
Hərdən əsəbləşib, dalaşardılar.
Çox çəkməz tezcə də barışardılar.
Günlər dolanırdı, keçirdi zaman,
Onlar böyüyürdü hər gün anbaan.
Uşaqlıq illəri arxada qaldı,
O, böyük qız kimi yaşını aldı.
Aylar dolanırdı, günlər keçirdi,
Qızlar bulağından o, su içirdi...

***

Gülşəni sınağa çəkirdi illər,
Üzündə böyüyüb artırdı çillər.
Saçları uzanıb qalınlaşmışdı,
Hörüklər dizləri çoxdan aşmışdı.
Vaxtında məktəbə gedib- gələrdi,
Özü dərslərini tez həll edərdi.
Əgər boş olsaydı onun zamanı,
Qoymazdı yorulsun evdə ananı.
Hər xırda işləri özü görərdi,
Həmişə anaya yardım edərdi.
Bədii əsərlər çox oxuyurdu,
Bəzən də nə isə o, toxuyurdu.
Özünə rəngbərəng iplər alardı,
Onları toxuyub naxış salardı.
Qoymurdu boş keçə bircə anını,
Dostları kəsərdi hər an yanını.

Getdikcə artırdı dostların sayı,
Yoxuydu onların bənzəri, tayı.
Yavaş-yavaş həyat onu sıxırdı,
Şıltaqlıq getdikcə yoxa çıxırdı.
Bir gün dərsdən evə gəldiyi zaman,
Bu dünya başına fırlandı inan.
Ağlaşma səsləri göyə qalxmışdı,
Bütün kənd onlara sanki axmışdı.
İynəni atsaydın düşməzdi yerə,
Nəyinsə dalınca qaçırdı hərə.
Hər kəsin özünün varıydı işi,
Küçəylə biriydi qadınla , kişi.
Gülşəni elə bil ildırım vurdu,
Əvvəlcə dayanıb yerində durdu.
Görəsən kimiydi bu evdə ölən?
Hər kəsi salamat qoymuşdum ki, mən.
Ağlıma heç kimsə gəlmir elə bil,
Bəlkə səhv gəlmişəm bizim ev deyil.
Qəfildən fikrinə şübhələr doldu,
Ağlına ilk gələn anası oldu.
"Ay ana"- deyərək ağzını açdı,
Qışqırıb tələsik qız evə qaçdı.
Dəhşətlə baxırdı o, evlərinə,
İnana bilmədi heç gözlərinə.
Diqqətlə hər yana baxdı qız bir də,
Gördü ki, anası oturub yerdə.
Bilmirdi ağlasın, ya da ki, gülsün,
Az qaldı təccübdən ordaca ölsün.
Aldada bilməzdi heç kim Gülşəni.
Artıq tanımışdı orda öləni.
Atası dünyanı tərk eləmişdi,

Kimsəyə bir kəlmə söz deməmişdi.
Evində yatmışdı birdən ürəyi,
Heç nəyin olmadı ona köməyi.
Əvvəlcə itirdi ana özünü,
Təccüblə açmışdı sanki gözünü.
Bilmədi nə etsin öncə qəfildən,
Ağlayıb hamını səslədi birdən.
Heç kimsə saxlaya bilmirdi onu,
Əlinə aldı o, tez telefonu.
Təcili yardıma telefon açdı,
Elə ürəyi bir anlıq sancdı.
Qorxudan ağlayıb hey bağırırdı.
Həkimi köməyə o, çağırırdı.
Aradan keçmişdi azca bir zaman.
Onlara yığıldı nə qədər insan.
Həkimlər yetirdi tezcə özünü,
Yoxlayıb hamıya dedi sözünü.
Çox gecdir, dayanıb artıq ürəyi,
Heç nəyin olammaz buna köməyi.

***

Onların evində qopmuşdu tufan,
Heç kimi tanımaq olmurdu inan.
Hamının gözündən tökülürdü yaş,
Sonra məzarlığa getdilər bir baş.
Məzarlıq batmışdı qəmə, kədərə,
Bir süküt çökmüşdü burda hər yerə.
Səmaya baxırdı məzar daşları,
Aləmi seyr edir sanki başları.
Gözləri dikilib qalmışdı yolda,
Daşlar düzülmüşdü sağda, gah solda.
Onlar yetişdilər qəbirsanlığa,

Sanki qopdu tufan bircə anlığa.
Hamının yatırdı burda kimsəsi,
Orayla biriydi mollanın səsi.
Molla oxuyurdu əlində quran,
Onu dinləyirdi burda hər insan.
Artıq sona çatdı bu dəfin işi,
Tərk etdi məkanı indi hər kişi.
Daha şər qarışıb, düşürdü toran,
Hər bir kəs evinə dönürdü o an.
Gülşən fırlanırdı evi- eşiyi,
Axtarırdı evdə bircə kişiyi.
Bu fikir Gülşəni yaman əzirdi,
Ancaq atasını bu qız gəzirdi.
Baxırdı hər yerin torpaq, daşına,
Bu ölüm şatmırdı onun başına.
Gülşən düşünürdü həmişə, hər an,
Atası dönəcək evə bir zaman.
Əfsuslar olsun ki, dönmürdü kişi,
Onu gözləməkdi Gülşənin işi.
Günlər bir-birini əvəz edirdi,
Ömür də su kimi axıb gedirdi.

***

Gülşən öyrəşmişdi  artıq  həyata,
Daha evlərinə dönmürdü ata.
Bütün hər bir işə ana gedirdi,
Kişi işlərini o, həll edirdi.
Çoxuydu Reyhanın işləri düzü,
Yoxuydu bircə an gecə-gündüzü.
Qoymurdu uşaqlar çəksin çətinlik,
Ana göstərirdi hər an mətinlik.
Günlərin birində zəng gəldi ona,

Tələsik o, baxdı tez telefona.
Xaricdən etmişdi zəngi bacısı,
Varıydı çox böyük dərdi, acısı.
Bu bacı xaricə getmişdi ərə,
Əlləri çatırdı bütün hər yerə.
Varıydı onların gözəl imkanı,
Əldə eyləyirdi nə çəksə canı.
Nə qədər yığmışdı varı, dövləti,
Heç nədən bir korluq çəkmirdi qəti.
Varıydı yeganə bircə övladı.
Kənan qoyulmuşdu oğlanın adı.
Günlərin birində işlər dolaşdı,
Çətinlik onların başından aşdı.
Aləm bir-birinə qarışdı yaman,
Onları tanımaq olmurdu inan.
Getdikcə dəyişdi orda vəziyyət,
Artıq çəkirdilər onlar əziyyət.
İflasa uğradı bacının əri,
Bağlandı hər yerdə onun işləri.
Sona zəng eylədi bir gün Reyhana,
Yardım eyləsinlər,  söylədi ona.
Dedi ki, qalmağa yoxdu yerimiz,
Olarmı bir müddət sizdə qalaq biz.
Reyhan qulaq asdı onun sözünə,
Bütün sözlərini dedi özünə.
Qurbandır bu evim- eşiyim sənə,
Nə xahiş edirsən, ay bacı mənə.
Anamdan yadigar qalan bacımsan,
Başımda parlayan gözəl tacımsan.
Birlikdə yaşayıb, deyib- gülərik,
Az olsa az, çox olsa çox yeyərik.

***

Halbuki, imkanı olanda Sona,
Allahın zəngini etmirdi ona.
Bilmirdi bacısı nə yeyib-içir,
Zor olan günləri heç necə keçir.
Həmişə dünyanın o düz çağında,
Gəzirdi öz kefi, öz damağında.
Ancaq indi dara düşdüyü zaman,
Birinci yadına düşmüşdü Reyhan.
Reyhangil onları evə aldılar,
Bir müddət onlarla birgə qaldılar.
Xalanın gözünün ağı-qarası,
Onunla gəlmişdi Kənan balası.
Gülşənlə dost idi gəldiyi andan,
Hər kəsin xətrini istədi Kənan.
Varıydı Gülşənin ala gözləri,
Kənana xoşuydu bütün sözləri.
O, ali məktəbə qəbul olmuşdu,
Daha bəlli yaşa gəlib dolmuşdu.
Hər gün qız dərslərə davam edirdi,
Kənan da onunla gəlib-gedirdi.
Arada yarandı xoş münasibət,
Məhəbbət yarandı ürəkdə xəlvət.
Qığılcım düşmüşdü bu iki cana,
Xəbər yayılmışdı orda hər yana.
Günlərin birində evdəykən Reyhan,
Sona ürəyini açdı həmin an.
İstəyirəm deyəm, ay bacı sənə,
Kənan vurulubdu qızın Gülşənə.
Birlikdə bunları gəl evləndirək,
Onlara köməklik etməmiz gərək.
Sona dayanmadan hey danışırdı,

Sanki yanağında od alışırdı.
Dayanmadan xala söhbət edirdi,
Xəyallar içində uçub gedirdi.
Boylanıb baxırdı hərdən hər yana,
İstəyirdi qızı alsın Kənana.
Elə bil dönmüşdü sanki bülbülə,
Reyhanı basırdı çox şirin dilə.
Mən səni bilmişəm başımın tacı,
Qızı ver, işimiz düzəlsin, bacı.
Biilirsən ağıllı oğlandır Kənan,
Qızının başına dolanar hər an.
Fikirləş, bu işi bir az çək- çevir,
Zənnimcə Gülşən də Kənanı sevir.
Reyhan fikrə getdi, düşündü bir az,
Söylədi: - Gülşənə deməmək olmaz.
Əslində bu işi mənə deyəndə,
Sənintək olduqca sevindim mən də.
Kənanı sevirəm övladım qədər,
Verməərəm heç zaman mən ona kədər.
Razılıq verərsə bu işə Gülşən,
Biləsən, ürəkdən şad olaram mən.
Sona da dedi ki, çağır qızını,
Danışdır, bir ara, onun ağzını.
Anası danışdı işi Gülşənə,
Xalan elçi düşüb, ay qızım sənə.
Deyirəm mən sənə bax dönə-dönə,
Fikirləş fikrini söylə sən mənə.
Mən səni bu işə məcbur etmərəm,
Nə də ki, üstünə heç vaxt getmərəm.
Diqqətlə  anaya qız qulaq asdı,
Həyacan olduqca bu qızı basdı.

Gözləri sevincdən par-par yanırdı,
Özünü olduqca xoşbəxt sanırdı.
Gülşən düşünmədən söylədi ana,
Razıyam getməyə mən də Kənana.
Kənanı sevirəm, ürəkdən özüm,
Etiraz etməyə heç yoxdu sözüm.

***

Günlərin birində məclis quruldu,
Hər yerə bər-bəzək, çiçək vuruldu.
Düzüldü yüz cürə nemət masaya,
Xörəklər çəkildi bulud, kasaya.
Hər şeydən daddılar, yemək yedilər,
Təriflər etdilər, sağlıq dedilər.
Gülşənin əlinə üzük taxdılar,
Üzüyə sevinclə dönüb baxdılar.
Sonra da başına bir şal saldılar,
Gözəl bir tort kəsib, həri aldılar.

***

Hər işlər yoluyla davam edirdi,
Bazara, dükana Reyhan gedirdi.
Ananın işləri başdan aşırdı,
Onlar toy etməyə hazırlaşırdı.
Reyhan anlayırdı olub-keçəni,
Qızılsız qoymaram dedi Gülşəni.
Bilirəm, bacımın yoxdu imkanı,
Nə üçün qaralsın qızımın qanı.
Bütün qızılları verəcəm ona,
Qoymaram utansın bu işdə Sona.
Nəhayət toy günü gəlib yetişdi,
Sona həmin yerdə yaman ilişdi.
Onların olduqca çoxuydu borcu,

Görünmürdü borcun daha heç ucu.
Faizin üstünə faiz gəlirdi,
Sonanın qəlbini bu dərd dəlirdi.
Toyları olduqca çox şən keçirdi,
Hamı şənlənirdi, yeyib- içirdi.
Gəlinə hədiyyə gəldi qızıldan,
Nəmər verilirdi oynayan andan.
Toplanan qızılın yoxuydu sayı,
Ən çox qızıl idi gəlinin payı.
Maraqla baxırdı Sona gəlinə,
Dikilib qalırdı gözü əlinə.
Fikrindən gör nələr gəlib keçirdi.
Hər şeyi düşünüb, ölçüb-biçirdi.
Dərin xəyallara dalmışdı Sona,
Təbriklər gəlirdi hər yandan ona.
Sona oynayırdı, gah şənlənirdi,
Arada yorulub o, dincəlirdi.
Sevinclə baxırdı həm sağa- sola,
Həm də ki, verirdi o, toyu yola.
Bu toydan olduqca ləzzət alırdı,
Toydan gedənləri yola salırdı.
Hər şeydən çox razı qalmışdı Gülşən,
Toyları keçirdi maraqlı və şən.
Yoxuydu sevincin həddi-hüdudu,
Düşündü səadət elə bax budu.
Nəhayət toyları yetişdi sona,
Xoş sözlər söylədi hər bir kəs ona.
Bəylə, gəlin durub düşdü qabağa,
Keçdilər birlikdə onlar otağa.
Kənan çox düşmüşdü ələ-ayağa,
Bir addım yeridi tezcə qabağa.

Xəyallar içindən sanki oyandı,
Özü də anladı, gördü piyandı.
Elə ki, girmişdi Kənan otağa,
Paltarla uzandı tezcə yatağa.
Gözünü yuman tək elə həmin an,
Yuxuya getmişdi o gecə Kənan.
Gülşən də bir qədər fikirə getdi,
Sonra da Kənana o, yardım etdi.
Oğlanın üstünə atdı bir yorğan,
Özü də yorulub ölürdü inan.
Divanın üstünə atdı özünü,
Yorğunluq içində yumdu gözünü.
Beləcə yatdılar onlar bir təhər,
Bir də gördülər ki, açılıb səhər.
Gülşən tez yuxudan durub oyandı,
Güzgünün önündə gəlib dayandı.
Diqqətlə baxdı o, əvvəl güzgüyə,
Elə bil baxırdı sanki özgəyə.
Anlaya bilmədi olub-keçəni,
Kənanla birlikdə kim qoyub məni?
Diqqətlə güzgüdə baxdı gözünə,
Sonra yavaş-yavaş gəldi özünə.
Hər bir şey düşürdü bir- bir yadına,
Bəxşişlər gəlmişdi onun adına.
Təmkinlə hər şeyi o, ölçüb-biçdi,
Toy gəlib gözünün önündən keçdi.
Yoxuydu sevincin həddi-hüdudu,
Düşündü xoşbəxtlik elə bax budu,
Gözünü güzgüdən ayırdı bir an.
Gördü ki, yuxudan durmayıb Kənan.
Üstünü, başını qaydaya saldı,

Otaqdan çıxmayıb orada qaldı.
Maraqla baxırdı hədiyyələrə.
Onları toplayıb qoydu bir yerə.
Əlinə yığılan pulları saydı,
Hər bir şey onunçün ən gözəl paydı.
Gülşən boylanırdı o yan, bu yana,
Arada baxırdı tez-tez Kənana.
Heç nədən yoxuydu onun xəbəri,
Uzanıb yatmışdı axşamdan bəri.
Gülşən özlüyündə xəyal qururdu,
Gözləri önündə nələr dururdu.
Bax elə bu zaman tamam qəfildən,
Otağın qapısı açıldı birdən.
Kənanın anası girdi otağa,
Əvvəlcə boylanıb baxdı yatağa.
Yataqda ilişib qalmışdı gözü,
Anlaya bilmədi heç bir şey özü.
O, sual vermədi daha Gülşənə,
Söylədi: bir işim düşübdü sənə.
Səni and verirəm, uca Allaha,
Heç gücüm qalmayıb , ay qızım daha.
Bilirsən düşmüşük biz borca yaman,
Borcların içində ölürəm inan.
Hədiyyə gəlibdir qızıldan sənə,
Onların hamsını gətir ver mənə.
Borcumu ödəyim, qurtarsın canım,
Borc üçün həmişə qaralır qanım.
Heç kimə söyləmə bu sirrimizi,
El - oba bilərsə qınayar bizi.
Bir sən bil, bir də mən, bir də ki, Allah,
İmkan olan təki verəcəm, vallah.

Sakitcə dayanıb bu qız baxırdı,
Göz yaşı içinə sanki axırdı.
Mat qaldı xalanın bu sözlərinə,
Kədərlə baxırdı düz gözlərinə.
Ağlına gəlmirdi olacaq belə,
Yerində qalmışdı donaraq elə.
Bu xəbər onuncün acıydı, acı,
Başqa cür yoxuydu ancaq əlacı.
Gözünü zilləyib baxırdı Sona,
Sanki aydın idi hər bir şey ona.
Lap sükut çökmüşdü indi otağa
Sona addım atdı bir az qabağa.
Artıq qərarının möhrünü vurdu,
Düz gəlib Gülşənin önündə durdu.
Gəlin maddım-maddım ona baxırdı,
Yanağından xəfif yaşlar axırdı.
Nəhayət tərpəndi gəlin yerindən,
Bütün qızılları gətirdi birdən.
Hamsını xalanın önünə qoydu,
Düşündü, görəsən gözləri doydu?
Xala gülümsəyib baxdı üzünə,
Aramla başladı sonra sözünə.
Bilmirəm bunları heç kimlər aldı,
O biri qızıllar üstündə qaldı.
Tək nişan üzüyü qoy qalsın səndə,
O zaman bax rahat olaram mən də.
Diqqətlə qulaq as mənim sözümə,
Qızılın hamsını sən ver özümə.
Gülşən mat qalmışdı olub- keçənə.
Gör nələr söyləyir bu xalam mənə?
Axı bu xalamdır, deyil mənə yad,

Eşidən nə qoyar bu işlərə ad?
Nə deyər eşidən - bilən bu işə?
Bir daha dönmərəm artıq keçmişə.
Bütün qızılları alırsa alsın,
Qoy bütün olanlar burda da qalsın.
Ağızda deyirdi o, bu sözləri,
Belə söyləmirdi ancaq gözləri.
Ondan ixtiyarsız yaş süzülürdü,
Sırayla yanağa  hey düzülürdü.
Başını uzadıb baxdı Kənana,
İstədi desin ki, bir bax anana.
Hər şeyi əlimdən gör necə aldı?
Üst- başım qızılsız sanki lüt qaldı.
Kənanın yoxuydu ancaq xəbəri,
Yumulu dururudu elə gözləri.
Artıq qurtarmışdı Gülşənin sözü,
Bütün qızılları çıxartdı özü.
Əvvəlcə bir baxdı bu qaynanaya,
Sonra da hamsını verdi Sonaya.
Qızıllar Gülşəni yandırıb yaxdı,
Kənardan nifrətlə Sonaya baxdı.
Daha olan olub, keçən keçmişdi,
Gülşən taleyini özü seçmişdi.
Olsa da bu işlər acıdan-acı,
Heç nəyin yoxuydu buna əlacı.
Toyunun ilk günü qanı qaraldı,
Onun ürəyini kədər, qəm aldı.
Heç gələ bilmirdi Gülşən özünə,
Kədərlə güzgüdə baxdı gözünə.
Tez sildi gözündən gələn yaşını,
Ehmalca daradı sonra başını.

Özünə o, verdi bir çəki-düzən,
Düşündü, vecimə almayacam mən.
Hər şey qurban olsun qoy bu Kənana,
Bir yandan xalamdır, bir yandan ana.
***
Bu toydan keçmişdi azca bir zaman,
Aralı gəzirdi həmişə Kənan.
Əlini vurmurdu qızın əlinə,
Heç yaxın durmurdu təzə gəlinə.
Özünü o yerə qoymurdu Gülşən,
Olurdu həmişə çox mehriban, şən.
İçində ürəyi tir-tir əsirdi,
Bu kədər qılınctək onu kəsirdi.
O, açıb-bükmədi bunu heç kəsə,
Düşünürdü keçər yəqin bu nəsə....
Bir gün dərsdən evə gəldiyi zaman,
Gördü ki, fikirli görünür Cahan.
Bu görkəm Gülşəni təşvişə saldı,
Sonra da özünü tez ələ aldı,
Nə olub, ay Cahan , nə olub sənə?
Düzünü söylə gəl indi sən mənə.
De görüm, bəs niyə heç kefin yoxdur,
Görürəm kədərin, qəmin də çoxdur.
Bu halın olduqca qorxudur məni,
İstəmərəm bu cür mən görəm səni.
Fikirli dayanıb baxırdı Cahan.
Elə bil yuxudan oyandı o an.
Gülşənə üz tutub dedi ki, bacı,
Həmişə olubsan başımın tacı.
Səndən gizli mənim olmayıb sözüm,
Hər şeyi deyəcəm indi bax özüm.

Mən gə ki, bəlli bir yaşa dolmuşam,
Çoxdandır bir qıza aşiq olmuşam.
Daha heç məndə də qalmayıb dözüm,
Anama deməyə gəlməyir üzüm.
O, bir dul qadındır, yeni toy edib,
Hər işin dalınca tək özü gedib.
Yorğunluq çıxmayıb canından hələ,
İndi nə söyləyim ona mən belə?
Bir qıza  çoxdandır meyil etmişəm,
Hər yerə onunla birgə getmişəm.
Mənimlə birlikdə işləyir Nigar,
Çox yerdən  Nigarın elçiləri var.
Anası deyir ki, bu işə baxaq,
Aparıb Nigara bir üzük taxaq.
Yoxsa başqasına verəcək onu,
Mənimçün pis olar o zaman sonu.
Anama söyləyim nə deyim, necə?
Bəlkə sən deyəsən ona bu gecə.
Cahana maraqla o, qulaq asdı,
Sonra qucaqlayıb, bağrına basdı.
Səbr elə qardaşım, gəl bir azca döz,
Mən sənə ürəkdən söz verirəm, söz.
Anamın yanına gecə gedərəm,
Bu işi kökündən mən həll edərəm.
Anamı çox yaxşı tanıyıram mən,
Razılıq verəcək , görəcəksən sən.

***

Gecəni gözləyə bilmədi Gülşən,
Əhvalı olduqca olmuşdu çox şən.
Tələsik Reyhanın yanına qaçdı,
Söhbəti ordaca Reyhana açdı.

Ananın sevincdən yaşardı gözü,
Gülşənə sarıldı əvvəlcə özü.
Ay qızım, nə gözəl bir xəbər oldu
Bir başa qəlbimə  xoş hislər doldu.
Deyirəm, ay bala kaş sağlıq ola
Verərik işlərin hamsını yola.
Əvvəlcə onlara elçi gedərik,
Sonra da xudmani nişan edərik.
Görürsən, ay qızım  indi də yazdır,
Əlimdə pul-para bir azca azdır.
Deyirəm, toplayım mən də özümü,
Tutacam verdiyim bax bu sözümü.
Hər işin dalınca yenə gedəcəm,
İnşallah, payızda toyu edəcəm.
Cahanın uçmağa yoxdu qanadı,
Sevincdən yadından çıxmışdı adı.
Əlinə aldı o, tez telefonu,
Çünki gözləyirdi Nigar da onu.
Sevincək danışdı olub -keçəni,
Təbrik eyləyirəm, söylədi səni.
Razıdır bu işə anamın özü,
Sevincdən parladı biləndə gözü.
Qızın həyəcandan gözü yaşardı,
Düşündü bu işi Cahan bacardı.
Ürəyi elə bil tir-tir əsirdi,
Suallar qılınc tək onu kəsirdi.
Getdikcə düşürdü bu qız təşvişə,
Atası nə deyər görən bu işə?
Olsa da bu kişi nə qədər mətin,
Onun xasiyyəti çətindir-çətin.
Birdən bəyənməsə əgər Cahanı,

Yola gətirəmməz onda atanı.
Necə qurtaracaq bu işin sonu?
Bilirdi anası  anlayar onu.

***

Nigar ürəyində hey danışırdı,
Beynində fikirlər çox qarışırdı.
Bəzən danlayırdı özü-özünü,
Bəzən  istəyirdi desin sözünü.
Günlərlə düşündü, daşındı Nigar,
Sonunda o, verdi ağıllı qərar.
Hər şeyi söylədi öncə Hicrana.
Məsləhət sizindir dedi, ay ana.
Atama danışıb deyərsən özün,
Qoy bizə söyləsin, desin öz sözün.
Yerbəyer eylədi  Hicran işini,
Sonra da gözlədi evdə kişini.
Həsən durub tezdən işə getmişdi,
Artıq o, gündüzü gecə etmişdi.
Çoxdan şər qarışıb, düşmüşdü toran,
İşdən dönməmişdi hələ bu insan.
Getdikcə düşürdü qatı qaranlıq,
Hicranı vahimə basdı bir anlıq.
Harda qaldı görən bizim bu kişi?
Yəqin çox cəkibdi yenə də işi.
Taksidə sürücü işləyirdi o,
Halal qazancını dişləyirdi o.
Yoxuydu Həsənin gecə-gündüzü,
Hicran alışmışdı buna da düzü.
Təlaşa düşmüşdü ancaq bu gecə,
Bilmirdi özünə gəlsin heç necə?
Anlaya bilmirdi olub keçəni,

Ancaq gözləyirdi indi Həsəni.
Çoxuydu Həsənə deyəcək sözü,
Onu gözləyirdi təlaşla özü.
Ürəyi baxmırdı onun sözünə,
Nələr görünürdü bu an gözünə.
Fikrindən çox şeylər gəlib keçirdi,
Hər şeyi yüz ölçüb, o, bir biçirdi.
Nigarın işinə indi görəsən,
Biləndə nə cavab verəcək Həsən?
Hicran bilməyirdi nə edir özü?
Qapıda qalmışdı elə bil gözü.
Fikirlər içində qalmışdı Hicran,
Səs gəldi həyətdən elə həmin an.
Hicran tez-tələsik çıxdı eyvana,
Boylandı eyvandan o yan, bu yana.
Hər yeri basmışdı qatı qaranlıq,
Özünü itirdi burda bir anlıq.
Heç kimi görmədi heç orda özü,
Kimsəni seçmədi o zaman gözü.
Həyətdən gəlirdi bir kişi səsi,
Ancaq görəmmədi orda heç kəsi.
Həsəni soruşdu kimsə bir kişi,
Dedi ki, Həsənlə var onun işi.
Səs gələn tərəfə boylandı Hicran,
Söylədi:gəlməyib evinə bu an.
Gələnlər səssizcə çıxıb getdilər,
Onların evini tez tərk etdilər.
Hicran da tələsik keçdi içəri,
O anda bağladı açıq yerləri.
Sanki bir üşütmə gəldi canına,
Təlatüm düşmüşdü onun qanına.

Həmin an eyməndi nədənsə özü,
Quruyub qalmışdı ağzında sözü.
O gecə bilmədi hardadır əri?
Heç yerdən gəlmədi onun xəbəri,
Hər yerdən soruşdu o gecə onu,
Bu kişi açmadı heç telefonu.
Hicranın ağlına nələr gəlirdi,
Sanki kürəyini bıçaq dəlirdi.
Ay Allah, bu nədir gəldi başıma?
Rəhm elə gözümdən gələn yaşıma.
Getdikcə vahimə basırdı onu,
Çox pis görünürdü bu işin sonu.
Bu necə olmuşdu, görəsən necə?
Evinə gələrdi Həsən hər gecə.
Doğrudur, iş üçün çox vaxt gedərdi,
Ancaq yoldaşına xəbər edərdi.
Səs-səmir çıxmadı ondan bu gecə,
Başına nə gəlib, necədir-necə?
Artıq gecə keçdi, açıldı səhər.
Gecəni ötürdü, çətin bir təhər.
Tələsik düzəltdi o, üst-başını,
Sildi tez gözündən gələn yaşını.
Bilmədi heç necə ayağa durdu,
Əvvəlcə hər yerə Hicran zəng vurdu.
Getdikcə hər yana sanki səs saldı,
Bu işə özü də donub mat qaldı.
Yoxuydu kişidən bir xəbər- ətər,
Özü də olmuşdu ölüdən betər.
Bu xəbər yayıldı tez bir zamanda,
Yerində donmuşdu hamı bir anda.
Üz tutub gedirdi onlara hər kəs,

Ev oldu Hicrana sanki dar qəfəs.
Dedilər gələcək  bir azdan kişi,
Çox olub yəqin ki, əlində işi.
Bəlkə o, uzağa səfər etmişdi,
Müştəri götürüb, çıxıb getmişdi.
O, uşaq deyil ki, itə, ya bata,
Ya da quş deyil ki, evə tez çata.
Bir azdan gələcək yəqin ki, evə,
Düzünü danışar o, sevə-sevə .
Yəqin enerjisi bitib telin də,
İmkanı olmayıb onun əlində.
Bax ona görə də heç zəng etməyib,
Yəqin ki, bu kişi uzaq getməyib.
Cürbəcür təsəlli verirdi gələn,
Ancaq heç olmadı yerini bilən.
Hər gün çoxalırdı gələnin sayı,
Qazanda qalırdı kişinin payı.
Çıxmırdı kişidən bir xəbər-ətər,
Hicran düşünürdü bu qədər yetər.
Nigarı boğurdu hər anda qəhər,
Ağlamaqdan oldu tamam bir təhər.
Yoxuydu Cahana deyəcək sözü,
Ağlamaqdan şişdi hər iki gözü.
Cahangil hər yana səs-soraq saldı,
Sonunda bu işə tamam mat qaldı.
Həsəndən çıxmırdı heç xəbər - ətər.
Nigar da olmuşdu  Hicrandan betər.

***

Yoxuydu Gülşənin gecə-gündüzü.
Kədərdən gülmürdü heç zaman üzü.
Günlərin birində xalası yenə,

Üzünü tutmuşdu evdə Gülşənə.
Ay bala, deyirəm gəl belə edək,
Yığışıb hamımız xaricə gedək.
Hər gündə xaricdən xəbərlər gəlir,
Artıq yavaş-yavaş işlər düzəlir.
Bir vaxtlar nə isə düşmüşdük tora,
Üzümüz -gözümüz öyrəşib ora.
Hazırlaş, düzəldək sənədimizi,
Köhnə dostlarımız gözləyir bizi.
Gülşənin sevincdən yaşardı gözü,
Ağlından çox şeyi keçirdi özü.
Düşündü hər bir şey yaxşı olacaq,
Köhnə xatirələr burda qalacaq.
Kənana mat olub qalmışdı özü,
Heç kimə demirdi o haqda sözü.
Yanında olsa da həmişə, hər an,
Əlini Gülşənə vurmurdu Kənan.
Aradan keçmişdi artıq neçə gün,
Bütün sənədləri yığdılar düzgün.
Sənədin hamsını səfirlik aldı,
Cavabçün onları növbəyə saldı.
Maraqla günləri sayırdı Gülşən,
Deyirdi xaricə gedəcəyəm mən.
Gözünün önünə nələr gəlirdi,
Fikirlər beynini sanki dəlirdi.
Aradan keçmişdi xeyli bir zaman,
Nəhayət yetişdi gözlədiyi an.
Əlində sənədlə gəlmişdi xala,
Otaqda gedirdi qabağa, dala.
Üzünü Gülşənə tutaraq birdən,
Sükutu o, pozdu sanki qəfildən.

Diqqətlə sən mənə qulaq as, Gülşən.
Doğrusu bimirəm necə deyim mən?
Sənin sənədlərin düzəlmir hələ,
Bizimlə sən gedə bilməzsən belə.
Bilmirəm, bax indi biz necə edək?
Deyirəm Kənanla hamımız gedək.
Səfirlik icazə verdiyi zaman,
Bizim yanımıza gələrsən o an.
Qabaqca biz gedək əşyalar alaq,
Ev tutaq, hər şeyi qaydaya salaq.
And verib deyirəm Kənan canına,
Biz gedək, sonra gəl sən də yanına.
O saat Kənana baxdı qız düzü,
Gülmürdü heç onun bu zaman üzü.
Uzağa dikildi oğlanın gözü,
Bilmirdi nə desin bu anda özü.
Nəhayət yanaşdı sonra Gülşənə,
Dedi ki, ay Gülşən sözüm var sənə
Bir azca səbr elə, gəl bir azca döz,
Hamının yanında mən verirəm söz.
İşləri qoyacam mən öz yoluna,
Qayıdıb girəcəm sənin qoluna.
Hər şeyi birlikdə hazır edərik,
Sonra da buradan çıxıb gedərik.
Özünü o yerə qoymadı Gülşən,
Dedi ki, nə olsun gözləyərəm mən.
Gülşənə dil töküb, razı etdilər,
Günlərin birində onlar getdilər...

***

Aradan keçmişdi bir qədər zaman.
Hiçranı fikirlər üzürdü yaman.

Nə oldu kişiyə, yoxamı çıxdı?
Bu fələk deyəsən evimi yıxdı.
Axtarıb, gəzmişik bütün yerləri,
Heç yerdən gəlməyir onun xəbəri.
Sakitlik içində bu zaman birdən,
Telefon zəng çaldı indi qəfildən.
Hicran dik atıldı bu gələn səsdən,
Gözləməyirdi zəng çünki heç kəsdən.
Nədənsə qəribə gəldi səs ona,
Əlini uzatdı tez telefona.
Ona zəng etmişdi bir nəfər kişi,
Dedi ki, polisdir, bax budur işi.
Bölməyə gələrsən dedi, ay bacı,
Ürəyin heç zaman görməsin acı.
Rəisin var sənə deyəcək sözü,
Səninlə  görüşmək istəyir özü.
Hicranın ürəyi tez-tez vururdu,
Gözünün önündə nələr dururdu.
Bildi ki, xoş xəbər gözləmir onu,
Heç yaxşı qurtarmaz bu işin sonu.
Təlatüm düşmüşdü onun canına,
Üz tutdu rəisin o an yanına.
Orada gördü ki, çoxlu insan var,
İşıqlı dünyası ona oldu dar.
Heç yaxşı görmürdü burdakı işi,
Görəsən sağdırmı düşündü kişi?
Polislər Hicranı içəri aldı,
Otaqda rəislə ikisi qaldı.
Rəis bu xanımdan hal-əhval tutdu,
Hicran da hər şeyi sanki unutdu.
Düşündü, ay Allah qurbanam sənə,

Bəlkə bir xoş xəbər verəcək mənə.
Fikirdən  ürəyi tez-tez əsirdi,
Elə bil harasa o , tələsirdi.
Rəis də topladı sonda özünü,
Nəhayət söylədi sözün düzünü.
Dedi ki, nə deyim sənə, ay bacı?
Verəcəyim xəbər olacaq acı.
Bir meyit tapılıb uzaqda bu gün,
Sifəti bilinmir heç doğru -düzgün.
Hadisə yerinə ekispert getdi,
Yerində hər şeyi onlar həll etdi.
Nə deyim, ay bacı biləsən düzü,
Heç aydın görünmür ölünün üzü.
Maşınla aşıbdı dərə dibinə,
Bəlkə də oxşamır sənin ərinə.
Səni  çox qorxutmaq istəmirəm mən,
Düşündüm, ərini tanıyarsan sən.
Bilirəm, günlərdir qarışıb başın,
Kaş bu heç olmasın sənin yoldaşın.
Tələsik otağı tərk etdi Hicran,
Bütün xəyalları puç oldu bu an.
Titrətmə düşmüşdü onun canına,
Yetişdi ölənin tezcə yanına.
Əvvəlcə çəkindi, tərəddüd etdi,
Nəhayət bir qədər yaxına getdi.
O, möhkəm yummuşdu iki gözünü,
Toplaya bilmirdi heç cür özünü.
Yalvarırdı bircə Həsən olmasın,
Ümid çiçəkləri daha solmasın.
Ölənin üzünü açdıqları an,
Dəhşətə gəlmişdi ordaca Hicran.

Nə qədər tanınmaz olsa da əri,
Aldada bilmədi onu gözləri.
Adamlar içində qopartdı şüvən,
Artıq o, bilirdi Həsəndir ölən.
Sonunda ekispert dedi ki, ona,
Qatillər bu işi yetirib sona.
Əlləri qurumuş biləsən necə,
Həsənə veriblər çoxlu işgəncə.
Ancaq heç bilinmir bunu kim edib?
Bu kişi oraya nə üçün gedib?
Müstəntiq söylədi: bacı, bir az döz,
Qatili tapmağa biz veririk söz.
Hicranın başına oldu dünya dar,
Deməli, bu işdə qatil əli var.
Olanlar gör necə yandırır məni,
Axı heç Həsənin yoxdu düşməni.
İndi olan olub, keçən keçmişdi,
Əzrayıl Həsəni özü seçmişdi.
Bu xəbər yayıldı ellərdən elə,
Hamının göz yaşı dönmüşdü selə.
El-oba yığışıb yasa getdilər,
Sonunda Həsəni dəfin etdilər.
Yoxuydu qatildən heç xəbər-ətər,
Nigar ağlayırdı hamıdan betər.
Cahan mat qalmışdı olub - keçənə,
Lənət yağdırırdı hamı düşmənə.
Kimiydi bu düşmən, nə idi işi?
Ona nə etmişdi bu Həsən kişi?
Həftələr keçirdi, ay dolanırdı.
Qatil tapılacaq, o, inanırdı.

***

Fikirlər içində qalmışdı Gülşən,
Düşündü neyləyim görən indi mən?
Allahım, nə etdim axı mən sənə?
Bu qədər kədəri yüklədin mənə.
Başqa bir ölkədə yaşayır Kənan,
Bilmirəm nə edir bu saat, bu an?
Evləndim, kül olsun mənim başıma,
Mən həsrət qalmışam öz yoldaşıma.
Ağlına bir fikir gəldi qəfildən,
Düzəldim sənədi özüm yenidən.
İndi səfirliyə bu gün gedərəm,
İşlərin hamsını mən həll edərəm.
Bir azca düzəltdi o, üz-gözünü,
Saldı səliqəyə tezcə özünü.
Gülşən tez-tələsik mindi maşına,
Sözləri varıydı öz yoldaşına.
Gəlib səfirliyə girdi birbaşa,
Yanaşdı ordakı işçi yoldaşa.
Hər şeyin öyrəndi orda düzünü,
Təccübdən itirdi sanki özünü.
Öyrəndi xalası aldadıb onu,
Onuncün belədir bu işin sonu.
Sənədin birini heç verməyibdir,
Bu haqda kimsəyə söz deməyibdir.
Əsəbdən Gülşənin yanırdı üzü,
Quruyub qalmışdı ağzında sözü.
Xalası bəs niyə belə edibdi?
Xaricə Gülşənsiz çıxıb gedibdi.
Bilmirdi nə etsin həmin an bu qız?
Fikirlər içində qalmışdı yalqız.
Nəhayət o, verdi sonda bir qərar,

Bildi ki, bu işin içində iş var.
Dağılsa bu dünya, qopsa da tufan,
Sənədi düzəldib  gedərəm hər an.
Bu xala deyil ki, sanki düşməndi,
Bilmirmi önündə duran Gülşəndi?
Allahım, biz buna nə pislik etdik?
Həmişə dediyi yol ilə getdik.
Xalamın nə idi məqsədi görən?
Heç onu anlaya bilməyirəm mən.

***

Aradan keçmişdi bir xeyli zaman,
Gülşən xəbər aldı, sevindi yaman.
Səfirlik icazə vermişdi ona,
İntizar yetişdi axır ki, sona.
Uçmağa yoxuydu onun qanadı,
Sevincdən çıxmışdı yadından adı.
İstədi Kənana sürpiriz etsin,
Kənandan xəbərsiz yanına getsin.
Artıq biletini aldı uçağa,
Bilirdi gedəcək sabah uzağa.
Hazırlıq görürdü getməyə Gülşən,
Yığdı çamadanı sevincək, çox şən.
Sevincdən ürəyi tez-tez əsirdi,
Kənanı görməyə çox tələsirdi.
Bilmədi uçağa heç necə mindi,
Xaricə getməyə yaman sevindi.
Bilmədi bu yolu heç necə getdi,
Nələri düşündü, nə xəyal etdi.
Artıq o, uçaqdan endiyi zaman,
Əlində varıydı yazılı ünvan.
Uçaqdan enərək, mindi maşına,

İstədi tez çatsın o, yoldaşına.
Maşında bir azca yumdu gözünü,
Sonra da ünvanda gördü özünü.
Elə bil yuxudan sanki oyandı,
Qapının önündə gəlib dayandı.
Sevincdən gülürdü Gülşənin üzü,
Başladı qapını döyməyə özü.
Aradan keçmişdi çox az bir zaman,
Qapının önündə dayandı Kənan.
Gülşəni görəndə o, donub qaldı,
Başını səssizcə aşağı saldı.
Əlindən tutmuşdu bir kiçik oğlan.
Ay ata, bu kimdir, soruşdu o an.
Gülşəni elə bil ildırım vurdu,
Donaraq eləcə yerində durdu.
Gözündə sanki bir qığılcım çaxdı,
Səssizcə dayanıb Kənana baxdı.
Hər bir şey güzgü tək aydın olmuşdu,
Gülşənin gözləri yaşla dolmuşdu.
Bu zaman arxadan göründü xala,
Özünü itirdi o da az qala.
Sən niyə gəlmisən, ay qızım Gülşən?
Sənə gəl sözünü demədim ki, mən.
Çünki evlənibdi çoxdan Kənanım,
Bax sənə görə də qaraldı qanım.
Mən səni evimə bax alım necə?
Otelə göndərim səni bu gecə.
Necə gün istəsən qalarsan orda,
Gedərsən sonra da sən doğma yurda.
Gülşən pillələri sürətlə endi,
Bir kəlmə danışıb, nə də ki, dindi.

Heç yeri tanımır, nə edəcəkdir?
Bilmirdi haraya heç gedəcəkdir.
Nəhayət o, gəlib otelə çıxdı,
Bütün xəyalları xalası yıxdı.
Gülşənin başına dünya oldu dar,
Dünyada belə də xalamı olar?
O, düşmən yaranıb elə bil mənə,
Nə pislik etmişəm, ay xala sənə?
Mənim həyatımı alt-üst elədin.
Heç zaman bacına düzü demədin.
Nə idi anamın axı günahı?
Demirsən bax tutar səni də ahı?
Bəlkə mən evimə dönüm bu gecə,
Axı bəs anama söyləyim necə?
Bəlkə heç mən ona deməyim bunu,
Qorxuram pis olar bu işin sonu.
Ya da ki, özümə axtarım bir iş,
Məndən uzaqlaşsın kədərli keşmiş.
Suallar içində o, itib-batdı,
Oteldə uzanıb bir azca yatdı...

***

Həsənin ölmündən keçdi bir qədər.
Bütün axtarışlar gedirdi hədər.
Qatildən yoxuydu heç bircə xəbər,
Hicran düşünürdü bu qədər yetər.
Bir də gördün gəlib kişinin ili,
Hələ tapılmayıb ancaq qatili.
Bilmirəm, bəs indi mən hara gedim?
Bəlkə də yenidən şikayət edim?
Gözündən sel kimi yaş ələnirdi,
Sinəsi boyunca səpələnirdi.

Elə bil həyətdə qopmuşdu tufan,
Sanki yer yerindən oynadı bu an.
Həyəti bürüdü qışqırıq səsi,
Bu səslər qorxutdu duyan hər kəsi.
Hicran  tez -tələsik qapını aşdı,
Birbaşa səs gələn qonşuya qaçdı.
Aləm qarışmışdı evdə-eşikdə,
Körpə boylanırdı kiçik beşikdə.
Körpənin anası vəfat etmişdi,
Artıq bu dünyadan köçüb getmişdi.
Durduğu yerdəcə yatdı ürəyi,
Allahdan kəsildi onun köməyi.
Hər yerə yayıldı ağlaşma səsi,
Bu xəbər şok etdi duyan hər kəsi.
Hamı ağlayırdı, şüvən edirdi,
Kimi yeni gəlib, kimi gedirdi.
Hicranın öz dərdi, üstəlik gəlin,
Dünyadan soyutdu elə bil əlin.
Sinəsində dərdlər lövbər salmışdı,
Dərdlərin içində batıb qalmışdı.
Onun qulağına bu zaman birdən,
Bir kişi səsləri gəldi qəfildən.
Bu səsdən diskindi görəydin necə?
Gözünün önünə gəldi o gecə.
Həmin gecəydi ki, yox oldu Həsən,
Bu kişi Həsəni soruşdu məndən.
Hicran tez-tələsik durdu ayağa,
Özünü çəkirdi sanki sınağa.
Diqqətlə qoy baxım, qoy görsün  gözüm,
Bu səsə əminəm düşündü özüm.
Həmin səs soruşdu məndən Həsəni,

Bu səs vahiməyə salmışdı məni.
Nə idi bax bunun Həsənlə işi?
Yoxa çıxdı elə o gecə kişi.
Otaqdan eyvana çıxmışdı Hicran,
Donub yerindəcə qalmışdı o an.
İnana bilmədi Hicran gözünə,
Tamam mat qalmışdı özü -özünə.
Ölənin qardaşı çıxdı o, kişi.
Nə idi Həsənlə bax bunun işi?
Suallar Hicranın qəlbini oydu
Nəhayət fikrinə son nöqtə qoydu.
Sanki bir güc gəldi bu anda ona,
Əlini uzatdı tez telefona.
Hicranın ürəyi yandı-alışdı,
Zəng edib polisə bunu danışdı.
Polislər oğlanı gəlib aldılar.,
Aparıb bölməyə onu saldılar.

***

İstintaq yenə də davam edirdi,
Bölməyə adamlar gəlib-gedirdi.
Aləm qarışmışdı tamam deməli,
Hər şeyi boynuna almışdı Əli.
Söylədi: onlara mən özüm getdim,
İşlərin hamsını planlı etdim.
Üç nəfər dost idik, pulumuz da yox,
Ehtiyac varıydı pula həddən çox.
Yığılıb biz üç dost, etdik məsləhət
Taksiyə minərik, soyarıq əlbət.
Həsəni dostlara məsləhət etdim.
Bax ona görə də evinə getdim.
Evinin yanında gözlədik onu,

Evinə gəlirdi işinin sonu.
Maşına əl etdik, maşın dayandı,
Həsən də bizləri müştəri sandı.
Tələsik oturduq biz də maşına,
Sürdürdük maşını bir dağ başına.
Nə qədər yol getdik, çıxdıq şəhərdən,
Boğazım tutuldu sanki qəhərdən.
Qatı bir qaranlıq hökm sürürdü,
Bir anda vahimə məni bürüdü.
Maşını saxlatdım, düşdüm maşından,
Uşaqlar arxadan vurdu başından.
Dəmirlə başına döydülər yaman,
Ətrafa axırdı baş-gözündən qan.
Cibində nə varsa hamsını aldıq,
Maşını dərənin dibinə saldıq.
Əslində istədik sökək maşını,
Üstünə biz yığaq dağın daşını.
Sonra hissələri çıxardıb sataq,
Bir az pulsuzluğun daşını ataq.
Maşının sürüşdü birdən təkəri,
Dağıtdı, uçurdu bütün yerləri.
Həsənlə birlikdə düşdü dərəyə,
Bir azca pul düşdü orda hərəyə.
Heyif olsun bizim əməyimizə,
Qəpik-quruş qaldı o zaman bizə.
Hicran ağlayırdı, pozuldu halı,
Qəfildən dəyişdi onun əhvalı.
Bir yandan sevindi, tapıldı qatil,
Nə isə təşəlli oldu elə bil.

***

Aradan keçmişdi bir xeyli zaman,
Cahangil Nigara taxmışdı nişan.

Hər yerdən gəlirdi toyun qoxusu,
Gülşənin yoxuydu gecə yuxusu.
Xalası bir xəbər göndərdi ona,
Deyirdi işləri qoy versin sona.
Bir xəbər verin siz deyin Gülşənə,
Tezliklə qayıtsın doğma vətənə.
O, heç boş-boşuna burda gəzməsin,
Xəyallar içində özün üzməsin.
Kənanın var burda qızı, arvadı.
Onun sevgisinin bax nədir adı?
Onsuz da yır-yığış edirdi Gülşən,
Deyirdi evimə dönəcəyəm mən.
Kənanın sevgisi sevgi deyilmiş,
Bilmirəm başıma gələn nə imiş?
Heç dada bilmədim mən də bu dadı,
Yalançı məhəbbət olacaq adı.

***

Reyhan yuxusundan erkən oyandı,
Pəncərə önünə gəlib dayandı.
O, çölü -bayırı bir az seyr etdi,
Sonra da oradan mətbəxə getdi.
İstədi çay qoysun sonra dəmləsin,
Bu zaman eşitdi ana kəlməsin.
Gülşənin səsidir, ay Allah bu səs,
Mənə gəldiyini deməyib heç kəs.
Reyhan tez- tələsik qapıya qaçdı,
Əvvəlcə sevincək qapını açdı.
Mat qaldı görəndə qızı Gülşəni,
Ay qızım, kim salıb bu hala səni?
Görürəm nəmlidir sənin gözlərin,
Sən ərə getmisən bəs hanı ərin?

Gülşən tez söylədi; - Neynirəm əri?
İmkan ver qoy keçim indi içəri.
Ay ana, Kənanla ayrılmışıq biz,
Bunu qəbul etdik artıq ikimiz.
Əslində mən ona olmadım yoldaş,
Sən demə bəxtimdən asılıbmış daş.
Qəfildən mən getdim oraya özüm,
Kənanı uşaqla gördü bu gözüm.
Arvadı gəzirdi evin içində,
Neynirəm mən onu bax bu biçimdə?
Sənin o bacın da deyilmiş mələk.
Hər zaman bizlərə gəlibmiş kələk.
Quruyub yerində qalmışdı Reyhan.
Bilmirdi qızına nə desin bu an.
Həmişə mən kömək elədim ona.
Nə üçün bəs belə eylədi Sona?
Gəl indi sən bunun günahından keç,
Bu qədər yaxşılıq sonda oldu heç.
Aldı qızılları, heç dillənmədim,
Hər şeyə göz yumdum, heç nə demədim.
Evimdə yer verdim, üstəlik qızı.
Adam da olarmı belə qırmızı?
Bu qədər insafsız olarmı insan,
Nə deyim, qoy haqqın versin Yaradan.
Reyhanın başına dünya dar oldu,
Əlləri göylərə açılı qaldı.
Oğlunun vardısa orda arvadı,
Gördüyün bu işin nə idi adı?
Bunların hamısı çəkilməz acı.
Bu namərd bacımın nədir amacı?
Düşmən də heç belə işləri görməz.

Bacını bu günə qoyaraq getməz.
Başımdan aşıbdır kədərim, acım,
Bu gündən o adda heç yoxdu bacım.
Aradan keçmişdi bir xeyli zaman,
Yenicə özünə gəlirdi Reyhan.
Artıq o, Gülşənə nişan etmişdi.
Bu gözəl arzuya Reyhan yetmişdi.
Toylar gözləyirdi ananı indi.
Bütün bu işlərə çox sevinirdi.

***

Doğru deyirlər ki, haqq yerdə qalmaz,
Ana ürəyini sındırmaq olmaz.
Xəbər yayılmışdı dərhal hər yana.
Sonadan bir xəbər çatdı Reyhana.
Dedilər gəlinlə dalaşıb Sona,
Bir zülm edib ki, gəlini ona.
Sonanı həmin an iflic vurubdu.
Əzrayıl qəsdinə yaman durubdur.
Yeriyə bilməyir, tutulub dili.
Nə də ki, işləmir hər iki əli.
Yatağa məhkumdur ömür boyunca.
Gözləri əllərdə qalacaq bunca...
Tutmuşdu Sonanı etdiyi günah,
Qırdığı ürəkdə qalmamışdı ah...
Budur haqsızlığın acı sonluğu,
Allah qarşısında verirsən sorğu.
Rənayam, deyirəm sonunda bunu.
Hər kəs bilməlidir kim olduğunu.
Onunçün yazdım mən bu poemanı,
Bir ibrət götürsün düşünsün hamı!!!

## MÜNDƏRİCAT


Sözün qadın taleyi, yaxud ruhdan doğan poeziya .........3
Sənsizlik öldürür ............................................................12
Üzüm gəlmir...................................................................13
Könlümün bağbanı ........................................................14
Niyə küsdün ...................................................................15
Özümdən aldın................................................................16
Dünya çalxalanır .............................................................17
Kasıb kimdi ....................................................................18
Mənalı yaşa ....................................................................19
Anlamadım, ürək səni ...................................................20
Yenidən göz açdın ..........................................................21
Tanımaz səni ...................................................................22
Nəsihət.............................................................................23
Niyə yazıldı .....................................................................24
Dünyanın dadı ................................................................25
Yaşın gözəlliyi .................................................................26
Gəzdirirsən daş ..............................................................27
Üzüklə qaş.......................................................................28
Kimlərdən istəyim .........................................................29
Qadın müqəddəsdir........................................................30
Qızım...............................................................................31
Cavanlığım uzaqlaşır......................................................32
Naz eyləmə .....................................................................33
Sevgi həsrəti ....................................................................34

Atamı istəyirəm ............................................................ 35
Sən olaydın................................................................ 36
Qocalıram mən ............................................................ 37
Eşq dəlisiyəm ............................................................. 38
Səninçün gəlmişəm ........................................................ 39
Unutmaq olarmı ........................................................... 40
Ana ağlayır ................................................................. 41
Dönəcək ömrüm nağıla .................................................... 42
Baldan da şirindir.......................................................... 43
Mən olmuşam .............................................................. 44
Qocalıram mən ............................................................ 45
Yaxşını pis görür........................................................... 46
Görüş yerimiz ............................................................. 47
Gözləyənin var ............................................................ 48
Dön mənə .................................................................. 49
Xəbər verin ................................................................ 50
Rəvan ...................................................................... 51
Özünü istərdik.............................................................. 52
Gecələr .................................................................... 53
Gözəldir sevib-sevilmək.................................................. 54
Yenə səni sevəcəyəm...................................................... 55
Hara tələsirsən............................................................. 56
Bir də gəl................................................................... 57
Əbədi deyil cavanlıq ...................................................... 58
Anandır, anan ............................................................. 59
Xəyalımdan getmir ........................................................ 60

Bahar bayramı ....................................................................61
Mübarək olsun yaşın ..........................................................62
Xəbərin varmı ....................................................................63
İnsanlar cürbəcür olur ......................................................64
Səs verək ...........................................................................65
Yaşayın qoşa ......................................................................66
Ana sevgisi .........................................................................67
Dünya əbədidir ...................................................................68
Cəmillə ölmüşəm mən də ..................................................69
Oğlum, bağışla ....................................................................71
Yeni il .................................................................................72
Belə etməyin .......................................................................73
Hardasan ............................................................................74
Dünyadan küsmüşəm .........................................................75
Hardasan ana ......................................................................76
Mübarəkdi bayramımız ......................................................77
Yaxşı ki, gəlmisən ..............................................................78
Payız ...................................................................................79
Qənirsiz gözəl ....................................................................80
Nurayım .............................................................................81
Gücüm çatmayır .................................................................82
Yadına düşürmü ..................................................................83
Hörmətlə anırıq ..................................................................84
Haqsızlıq hara gedir ...........................................................85
Şərəfli peşədir .....................................................................86
Təbrik edirəm özümü .........................................................87

Nə görür gözüm ........................................................88
Dumanda, çəndə ........................................................89
Gəl barış ........................................................90
Şamla kibritin söhbəti ........................................................91
Əlçatmaz sanma özünü ........................................................92
Həyatla ölüm ........................................................93
Üç nədən var ........................................................94
Şəhidi tanı ........................................................95
Şəhidim var ........................................................96
Heydərov Qadir ........................................................97
Kimsən axı ........................................................98
Eyləmə minnət ........................................................99
Səni yüz yaşa ........................................................100
Olarmı belə dərd ........................................................101
Cavanlıq əbədi deyil ........................................................102
Yağış yağır ........................................................103
Zəmanə tərsinə işləyir ........................................................104
Sənin həsrətin ........................................................105
Nə eylədim ........................................................106
Bir-bir gedir əzizlərim ........................................................107
Mənim həkimim ........................................................108
Əlləri qızıldır ........................................................109
Tərk etdi Aslanım ........................................................110
Niyə saldın ........................................................111
Unutmaz Hacı Şahini ........................................................112
Təbrik eyləyirəm ........................................................113

Xocalı abadlaşacaq ........................................................114
Mən nə gəzirəm ............................................................115
Rəşiddən soruş ............................................................116
Nə istədin, dünya bizdən ..................................................118
Türkiyə yellənir ..........................................................119
Ömür qısadır ..............................................................120
Harda qaldı dişlərim ......................................................121
Sirlidir dünya ............................................................122
Sən küsmüsən ..............................................................123
Rusları tanı ..............................................................124
Cənnətdir yeri ............................................................125
Sən öldürmüsən ............................................................126
Qara bələnir ..............................................................127
Dünya əbədidir ............................................................128
Döyüş Alı .................................................................129
Birdir kökümüz ............................................................130
Unutmaq olarmı ............................................................131
Ən gözəl hədiyyə ...........................................................132
Hüzur istəyirəm ...........................................................133
Kimə qalacaq ..............................................................134
Qızlar köç edir ............................................................135
Darıxıram .................................................................136
Qəhrəman Nicat .............................................................137
Söz yarası ................................................................138
Ayrılıq ...................................................................139
Gəlməyəcəyəm ..............................................................140

Poladdan olaydı............................................................................141
Böyükdür acım .............................................................................142
Uşaqlıq illərim ..............................................................................143
Tovuz quşu....................................................................................144
Hardasan, əzizim ..........................................................................145
Az qalıb.........................................................................................146
Dünyanın nədir mənası.................................................................147
Uşaq bayramı................................................................................148
Görmədin həmin dağı ...................................................

149
Həyatın qanunu.............................................................................150
Əziz qardaşım................................................................................151
Könlümün sultanı .........................................................................152
Yalançı məhəbbət .........................................................................153

Rəna Qurbanlı Qılıcova

# Duyğu dəryası

İMZA
NƏŞRLƏR EVİ


Direktor: Səbuhi Aslan

Dizayner: Nigar Sadıqova

Texniki redaktor: Hüseyn Məmmədov

Çapa imzalanmışdır: 07.02.2026
Ofset çapı. Əla növ kağız
Tiraj: 100
Ünvan: Bakı, Mətbuat prospekti 529-cu məhəllə
Telefon: (012) 538-18-87, (050) 263-16-16
email: imza_nesrler_evi@mail.ru